

Milli azadlıqdan şirin nemət yoxdur!

İ. Əliyev



## “Mənəvi dəyərlərin təcəssümü: qəlblərdə yaşayan nurlu insan”

Bax səh. 4

## 24 il əvvəl gətirilmiş kiçik daş parçası...




Bax səh. 3

YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

27 aprel 2024-cü il, şənbə

№ 073 (6659)

Qiyməti 60 qəpik

# Azərbaycan ev sahibi kimi körpülər yaradacaq

## İlham Əliyevin Berlindən dünyaya sülh mesajı



Bax səh. 2

# İlk və tarixi uçuş...

Bax səh. 3

## “Astana formatı” reallaşır...



Bax səh. 3

## Qardaş dəstəyi ilə...

Dost Qırğızıstan Prezidenti Sadır Japarovun Azərbaycana növbəti səfəri uğurla başa çatsa da, bu səfərlə bağlı təəssüratlar uzun müddət yaddaşlardan silinməyəcək. İki gün ərzində dövlət başçılarının aktual müzakirələr aparmaları, çoxsaylı tədbirlərin keçirilməsi, daha 18 sənədin imzalanması, yeni sənədlərin hazırlanması ilə bağlı müvafiq qurumlara tapşırıqların verilməsi, Bakıda dünya şöhrətli qırğız...

Bax səh. 3

## Milli maraqlar, beynəlxalq hüquq...



Bax səh. 5

## Ən yaxşı 10 ölkədən biri...

Prezident İlham Əliyev ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forumda çıxışı zamanı ölkəmizin güclü maliyyə sabitliyinin təmin edildiyini və dünyada ən aşağı borc yükünə malik dövlətlərdən biri olduğunu xatırladıb. Qeyd edib ki, Azərbaycan iqtisadiyyatı özünü təmin edən güclü iqtisadi imkanlara malik olmaqla, həm də bütün xarici öhdəliklərini tam vaxtında yerinə yetirir. Bunun nəticəsidir ki, hazırda ölkəmizin xarici borcu ümumi daxili məhsulun (ÜDM) 8 faizinə bərabərdir.

Azərbaycanın xarici borcunun azaldılması üçün hökumətin icra etdiyi borcun idarə olunmasına dair strategiya sənədi son 5 ildə müəyyən edilmiş hədəfə tam çatmağa imkan verib. Belə ki, 2018-ci ilə qədər Azərbaycanın xarici dövlət borcunun çəkisi ÜDM-də 16,7 faizə bərabər idi. Sonrakı illərdə bu rəqəm tədricən aşağı düşdü və hədəf 10 faizdən də aşağı rəqəm idi. Beləliklə, 2024-cü il aprelin 1-nə olan göstəricilərə əsasən, Azərbaycanın xarici dövlət borcu 5 milyard 507,3 milyon dolları ekvivalentinə bərabər olub ki, bu da...

Bax səh. 4

## Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi bağlandı

Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi öz vəzifə və tapşırıqlarının öhdəsindən layiqincə gəlib.

Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin bağlanış mərasimində çıxışı zamanı deyib ki, 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin növbəti təxribatının qarşısını alaraq əkshəmlə əməliyyatı keçirdi: “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı Prezident İlham Əliyevin rəhbərliyi altında aparılmış 44 günlük Vətən müharibəsi Azərbaycan Respublikasının tam Qələbəsi və ərazi bütövlüyünün təmin edilməsi ilə başa çatdı. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin imzaladığı 10 noyabr 2020-ci il tarixli Bəyanata əsasən, atəşkəs rejiminə nail olundu və 30...

Bax səh. 5

## ABŞ-ın ənənəvi “qara piarı”...

Hazırda beynəlxalq münasibətlər sistemində dərin böhran mövcuddur. Bu gün dünyada beynəlxalq nizam pozulub, beynəlxalq hüquq normaları işləmir. Belə olan halda bir sıra hegemon dövlətlər digər xalqlara münasibətdə öz maraqları baxımından yanaşırlar. Hazırda ABŞ-ın həyata keçirdiyi siyasət də buna nümunədir.

Ümumiyyətlə, bir sıra müstəqil milli dövlətlərin müasir beynəlxalq münasibətlər sistemində öz mövqeyini möhkəmləndirməsi, yaxud iqtisadi inkişaf tempinə malik olması böyük güclər tərəfindən müsbət qarşılanmır. Məhz buna görə də həmin güc mərkəzləri, xüsusilə ABŞ müstəqil milli dövlətlərə qarşı “qara piar” kampaniyası aparır, daha sonra isə “idarə edilən xaos” yaratmaqla həmin dövlətlərdə nəzarəti tamamilə ələ keçirməyə çalışırlar. ABŞ-ın geosiyasi ambisiyalara söykənən maraqları dünyada ciddi regional və qlobal təhdidlər yaratmaqla yanaşı, bir çox ölkələri faktiki xaos meydanına çevirib. Birləşmiş Ştatların dağıdıcı geosiyasi ambisiyalara söykənən ekspansionalist siyasəti miqyas etibarilə olduqca...

Bax səh. 6

## Təkliyinə çarmıxlanmış nəsil

**Vilayət Hacıyevin rəyi**

“Əlbəttə, tərcümələr hamısı rus dilindən olunduğu üçün, demək olar ki, ifadə edilən məna eynidir. Sadəcə olaraq, ifadə vasitələrində müxtəliflik var. Bəzilərində o, orijinaldakından bir qədər qüvvətli, bəzilərində isə zəif səslənir. Məsələn, “mir bıl ehe takim novım...” cümləsi birinci, dördüncü tərcümələrdə “bakirəydi” kimi verilir ki, bu da, zənnimcə, yaxşı səslənsə də, orijinalın fikir yükünü vermir, “təzəydi”, “təzə idi”, “təzə-tər idi” (tərcümə: 2, 3, 5, 7) hərfi tərcümə təsiri bağışlayır. Əslində, dünyanın həmin vaxtlar heç də “təzə” olmadığını, yalnız onlar üçün təzə açıldığını nəzərə alsaq, altıncı və səkkizinci tərcümələri cümlələrin əvvəlinə “sanki” və ya “elə bil” artırmaqla məqbul tərcümə hesab etmək olar. Bəlkə də belə daha yaxşı səslənərdi: “Sanki dünya yenicə bina olunmuşdu...” Axı onda dünya çoxdan bərqərar idi və hər şeyin də adı vardı, sadəcə olaraq, onlara məlum deyildi.

Orijinaldan ikinci cümləni tərcümə etmək üçün bircə anlığa iri ağ daşların...

Bax səh. 7

## Redikküllərin yeni “hədəfi”

Bax səh. 7

## Avropa Parlamentinin növbəti qərarı

## 8-ci qətnamə



Bax səh. 6

# Azərbaycan ev sahibi kimi körpülər yaradacaq



## İlham Əliyevin Berlindən dünyaya sülh mesajı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsun dəvəti ilə "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak etmək üçün aprelin 25-də Füzuli şəhərindən Almaniyaya işgüzar səfərə gəlib.**

**AZƏRTAC xəbər verir ki, Berlin şəhərinin Brandenburq "Willy Brandt" Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.**



## Enerji təhlükəsizliyi milli təhlükəsizlik məsələsidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

Dəvətə görə təşəkkürünü bildirən dövlətimizin başçısı bldirib ki, COP29-a ev sahibliyi edəcək ölkə kimi Azərbaycan qlobal tədbirə hazırlığın fəal mərhələsindədir: "COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət, bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq. Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq".

120 ölkəni birləşdirən Qoşulmama Hərəkatında dörd il ərzində sədrliyimizi xatırladan Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan sədrlik zamanı Hərəkatın bir çox üzvləri ilə olduqca məhsuldar münasibətlər qurub: "Sədrliyimiz COVID-19-a təsadüf etdi. Beləliklə, biz çox məsuliyyətlə davrandıq və 80-dən artıq ölkəyə humanitar, maliyyə və texniki yardım göstərdik. Bir sözlə, ümid edirəm ki, həmin beynəlxalq platforma bizə Qlobal Cənub ölkələrini ümumi gündəliyə əlavə etmək imkanını yaradacaq. Eyni zamanda, bir çox Avropa ölkələri ilə münasibətlər uğurla inkişaf edir. Avropa İttifaqının doqquz üzvü ilə Azərbaycan "Strateji Tərəfdaşlıq" haqqında razılaşmalar və bəyannamələr imzalayıb, yaxud qəbul edib. Bunları söylədikdə, ümid edirəm ki, həmin beynəlxalq əlaqələr bizə həmrəyliyi gücləndirməyə imkan verəcək. Bizə məhz bu lazımdır. Bizə maliyyə lazımdır. Bizə həmrəylik lazımdır və bizə ortaq məsuliyyət lazımdır".

Azərbaycan faydalı qazıntı ilə zəngin olan ölkə kimi OPEC+ platformasının üzvü olduğunu vurğulayan dövlətimizin başçısı bildirib ki, bu, əlavə üstünlükdür - təbii sərvətləri, xüsusən də neft və qazı zəngin olan ölkə iqlim dəyişmələri məsələlərinin həllində ön cərgədə olmalıdır. Azərbaycanın COP-a ev sahibliyi edəcək ölkə kimi seçilməsindən dərhal sonra bəzi mətbuat orqanları tərəfindən ölkəmizin enerji quruluşuna diqqət ayrıldığını xatıladan Prezident İlham Əliyev billdirib ki, bu, Tanrıdan verilən vəsilədir və biz həmin ehtiyatların ölkənin inkişafına, yoxsulluğun və işsizliyin azaldılmasına, "yaşıl gündəliklə" bağlı tutduğumuz hədəflərə yönəldilməsinə görə dəyərləndirilməliyik.

"Neft və qazımız, həmçinin Avropa bazarlarına hələ uzun illər ərzində lazım olacaq. 2022-ci ildə Avropa İttifaqı və Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb və bizim Avropa İttifaqına təbii qaz təchizatımız artmaqdadır. Bu, Avropa Komissiyasının xahişi idi. Biz buna müsbət cavab verdik. Hazırda təbii qaz ixracımızın yarısı, xüsusən də 12 milyard kubmetri Avropa İttifaqının bazarına gedir. Qeyd edilən Memoranduma əsasən, 2027-ci ilə qədər Avropa İttifaqına ixracımız 20 milyard kubmetrə çatmalıdır. Hamımız anlayırıq ki, bu geosiyasi durumda həmin məsələ Azərbaycanın məsuliyyətli olmağının təzahürüdür, çünki biz qaz hasilatımızın artırılmasına böyük həcmdə sərmayə yatırırıq və Avropaya yeni mənbələrdən daha çox qaz lazımdır" deyən dövlətimizin başçısı bəyan edib ki, yaşıl gündəliyimiz hələ COP29 qərarından əvvəl icra olunmağa başlanıb.

Xarici tərəfdaşlar və sərmayədarlarla yaşıl keçid üzrə artıq nəhəng layihələrə başladığımızı söyləyən Prezident İlham Əliyev yalnız bu il ərzində 1300 meqavat Günəş və külək enerjisini istehsal etmək imkanını yaradacaq enerji stansiyalarının təməlqoyma mərasiminin keçiriləcəyini diqqətə çatdırıb: "2027-ci ilin sonuna qədər ümid edirik və əslində, müqavilələr imzalandığına görə əminik ki, 2000 meqavat Günəş və yaşıl enerji imkanlarımız olacaq. Doqquz elektrik enerjisi stansiyası olacaq və 2030-cu ilə qədər əlavə 10 Günəş və külək enerjisi stansiyaları qurulacaq ki, onların gücü 5000 meqavat (5 qiqavat) təşkil edəcək. Bu potensialdan istifadə edərək, biz qaz istehlakımızı əksər hissədə elektrik enerjisi istehsalı ilə əvəzləyəcəyik. Həcmlərə gəldikdə isə düşünürəm ki, Avropaya ən azı əlavə 5 milyard kubmetr qaz ixrac olunacaq. Bir sözlə, bu, əslində, hər kəs üçün uduşlu variantdır. Biz olduqca münbit sərmayə mühitini yaratmışıq. Qeyd etdiyim bütün həmin "yaşıl enerji" layihələri xarici sərmayədarlar tərəfindən maliyyələşdirilir".

Azərbaycanın Avropaya lazım olan böyük həcmdə təbii qaza qənaət edəcəyini bildirən dövlətimizin başçısı qeyd edib ki, hazırda Xəzərdə külək enerjisi stansiyalarından Avropaya vahid ötürülmə xətlərini, o cümlədən Qara dənizin dibi ilə kabeli çəkmək üçün texniki əsaslandırma işlərinin son mərhələsindəyik: "Bu, dörd qiqavat həcmində Azərbaycanın yaşıl enerjisini Avropaya ixrac etmək imkanını yaradacaq. Dənizdə külək enerjisinin təsdiqlənmiş ehtiyatlarımız 157 qiqavatdır. Bu, potensialın təzahürüdür".

Prezident çıxışının sonunda vurğulayıb ki, enerji təhlükəsizliyi birmənalı olaraq ölkələrin milli təhlükəsizlik məsələsi hesab edilməlidir: "Ayrı-seçkilik olmamalıdır. Faydalı qazıntı ilə zəngin olan ölkənin rəhbəri kimi, əlbəttə ki, biz həmin ölkələrin sərmayəni və hasilatı davam etdirmək hüququnu müdafiə edəcəyik, çünki dünyanın buna ehtiyacı var. Lakin, eyni zamanda, artıq qeyd etdiyim kimi faydalı qazıntısı olan ölkələr iqlim dəyişmələri məsələlərinə aid həmrəyliyi nümayiş etdirən ölkələr sırasında olmalıdırlar".

## Azərbaycanın yaşıl gündəliyi artıq dünyaya bəllidir

Geniş tərkibdə görüşdən sonra Prezident İlham Əliyev və Kansler Olaf Şolts birgə mətbuat konfransı keçiriblər.

Almaniya Kansleri söyləyib ki, 2024-cü il regionda sülh ili ola bilər və olmalıdır. Bu, özündə imkanlar və məsuliyyət gətirir. Demarkasiya ilə bağlı ilkin razılıqların Almaniya tərəfini sevindirdiyini deyən Kansler bu dinamikanı saxlamağı və bu istiqamətdə cəsarətli addım atılmasını dəstəklədiyini vurğulayıb.

Azərbaycan-Almaniya münasibətlərinə toxunan dövlətimizin başçısı bildirib ki, son vaxtlar Onun Almaniyaya səfərləri müntəzəm xarakter alıb: "Deyə bilərəm ki, son müddət ərzində Almaniya-Azərbaycan əlaqələri sürətli inkişaf dövrünü yaşayır".

Keçən ilin martında Berlində, iki ay əvvəl Münxendə Kansler ilə görüşdüyünü xatırladan Prezident İlham Əliyev bildirib: "İkitərəfli gündəlik kifayət qədər genişdir. Almaniya-Azərbaycan əlaqələrinin inkişafı həm ölkələrimiz üçün, həm də bütövlükdə, Cənubi Qafqazın inkişafı və sabitliyi üçün çox böyük əhəmiyyət kəsb edir".

Prezident İlham Əliyev Almaniyanın COP29 ilə bağlı Azərbaycana göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib və qeyd edib ki, bizim komandalarımızın üzvləri bir-biri ilə sıx təmasdadırlar: "COP29-un ev sahibliyini etmək bizim üçün həm böyük şərəf, həm də məsuliyyətdir. Biz buna hazırıq və Azərbaycanın yaşıl gündəliyi artıq dünyaya bəllidir".



Prezident İlham Əliyev bildirib ki, neft və qazla zəngin olan ölkələr haqqında hansısa miflər yaradılmamalıdır: "Bu ölkələr iqlim məsələlərinin həlli üçün çox böyük səylər göstərmişdir. Bu gün BƏƏ, Azərbaycan və Braziliya troyka şəklində fəaliyyət göstərir".

Bu ölkələrin əldə olunmuş gəlirlərin yaşıl enerjiyə sərf edilməsi istiqamətdə addımlar atdıqlarını vurğulayan dövlətimizin başçısı deyib: "COP29 qarşıdurma arenası olmayacaq. Azərbaycan ev sahibi kimi körpülər yaradacaq. Azərbaycan Qərblə Qlobal Cənub arasında körpü rolunu oynamaq fikrindədir, o cümlədən yaşıl enerjiyə keçid və iqlim dəyişikliyi ilə bağlı".

"Beləliklə, həm ənənəvi enerji növləri, eyni zamanda, bərpaolunan enerji növləri ilə zəngin olan Azərbaycan Avropa üçün uzun illər bundan sonra əhəmiyyətli tərəfdaş kimi olacaqdır", - deyə dövlətimizin başçısı bildirib.

**Sülh danışıqlarını yüksək qiymətləndiririk**

Dövlətimizin başçısı Azərbaycan-Ermənistan arasında sülhün əldə olunması ilə bağlı prosesə diqqəti çəkərək bildirib ki, sülhə nail olmaq üçün çox yaxşı fürsətlər var: "Ermənistanla Azərbaycan arasında gedən proses nəticəsində sərhədlərin delimitasiyası, hətta demarkasiyası da başlamışdır. 1990-cı və 1992-ci illərdə işğal edilmiş 4 Azərbaycan kəndi bizə qaytarılıb".

Azərbaycanda yerləşmiş Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin bu gün (dünən - red.) səhər fəaliyyətini dayandırdığını vurğulayan dövlətimizin başçısı qeyd edib: "Yəni, sülhə nail olmaq üçün çox yaxşı fürsətlər var. Bütün bu işdə bizə kömək etmək istəyən ölkələrlə əməkdaşlıq etməyə hazırıq. Biz Azərbaycan ilə Ermənistan arasında gedən sülh danışıqlarını yüksək qiymətləndiririk".

Kansler Olaf Şoltsun dəvəti ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin bu yaxınlarda Almaniyada görüşdüklərini xatırladan dövlətimizin başçısı bildirib: "Növbəti görüş Qazaxıstanda planlaşdırılacaq və beləliklə, sülh sazişinin imzalanmasına doğru biz əlavə addımlar atırıq".

Prezident söyləyib ki, müharibədən cəmi 3 il yarım vaxt keçib, artıq 6 min keçmiş köçkün öz dədə-baba torpağına qayıdıb və bu proses davam etdirilir.

Bu ilin sonuna qədər 20 min məcburi köçkünün doğma yurduna qayıdacağını bildirən dövlətimizin başçısı qeyd edib ki, qayıdan hər insan Azərbaycan Ordusuna, Azərbaycan rəhbərliyinə minnətdarlıq hissi ilə, şəhidlərimizə Allahdan rəhmət diləyərək qayıdır. Bu, ümumxalq məsələsidir. "Torpaqlarımızın azad edilməsi necə ümumxalq məsələsi idisə, torpaqların bərpa olunması da ümumxalq məsələsidir", - deyə Prezident bildirib.



**Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə təkbətək görüşü olub.**

***

**Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Almaniya Kansleri Olaf Şolts ilə geniş tərkibdə görüşü keçirilib**



## Regionda sabitlik təmin olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 26-da Berlində Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok ilə görüşü olub.

Annalena Berbok "Petersberq İqlim Dialoqu" çərçivəsində aparılmış müzakirələrin vacibliyini və Prezident İlham Əliyevin bu əsnada çıxışını qeyd etdi. O, COP29-la əlaqədar Almaniya ilə Azərbaycanın müvafiq heyətləri arasında sıx əməkdaşlığın olduğunu və mütəmadi əsasda məsləhətləşmələrin aparıldığını müsbət hal kimi qiymətləndirdi. Almaniyanın Azərbaycanın COP29-a sədrliyinin dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəyini dedi.

Azərbaycan Prezidenti COP29-la əlaqədar Almaniya ilə əməkdaşlığa və "Petersberq İqlim Dialoqu" formatındakı müzakirələrə dəvətə görə bir daha təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, COP29-un Azərbaycanda keçirilməsi prosesi Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin tərkibi olaraq ərsəyə gəlib.

Annalena Berbok Almaniyanın Ermənistanla Azərbaycan arasında sülh gündəliyini bundan sonra da dəstəkləyəcəyini vurğuladı.



Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kanslerinin dəstəyi ilə Ermənistanla Azərbaycan arasında keçirilmiş görüşün önəmini qeyd etdi, bu görüş çərçivəsində aparılmış müzakirələrin sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə ciddi təkan verdiyini bildirdi.

Dövlətimizin başçısı Almaniya xarici işlər nazirinin dəstəyi ilə Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında sülh müqaviləsi üzrə danışıqların aparıldığını vurğuladı, bunun sülh müqaviləsi üzrə danışıqların irəli aparılması üçün vacib addım olduğunu dedi.

Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında birbaşa danışıqlar və dialoq vasitəsilə sərhədlərin delimitasiyası, hətta demarkasiyası sahəsində əldə olunmuş uğurları müsbət addım kimi qiymətləndirdi, regionda sabitliyin artıq təmin olunduğunu qeyd etdi.

Azərbaycanın sülh gündəliyinin irəli aparılması üçün səylərini bundan sonra da davam etdirəcəyini deyən Prezident İlham Əliyev ölkəmizin sülh gündəliyinə sadiq olduğunu vurğuladı.

Dövlətimizin başçısı Qazaxıstan tərəfinin təklifi ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri səviyyəsində növbəti görüşün Qazaxıstanda keçiriləcəyini dedi.

## BƏƏ əməkdaşlığa hazırdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 26-da Berlində Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ilə görüşü keçirilib.

Dövlətimizin başçısı salamlara görə təşəkkürünü bildirdi, onun da salamlarını BƏƏ Prezidentinə çatdırmağı xahiş etdi.

Sultan Əhməd Əl-Cabir BƏƏ-nin COP28-in sədri və ev sahibi olaraq Azərbaycanla yaxından işləməkdən məmnunluğunu bildirərək, COP29 ilə bağlı BƏƏ-nin Azərbaycana dəstəyini əsirgəmədiyini diqqətə çatdırdı, bu istiqamətdə birgə işləməyə və əməkdaşlığa hazır olduqlarını vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanla BƏƏ arasında birgə fəaliyyətin əhəmiyyətini və COP28-də "üçlük" mexanizminin yaradılmasının vacibliyini qeyd etdi.

Söhbət zamanı Azərbaycanla BƏƏ arasında ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olundu, ölkəmizin "yaşıl enerji" sahəsinə BƏƏ tərəfindən yatırılan investisiyalar nəticəsində bərpaolunan enerji ixracı imkanlarının yaranması və bu istiqamətdə potensialın artması məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.



Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olundu.

## Almaniya Ermənistanla Azərbaycan arasında sülh gündəliyini dəstəkləyir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək görüşüb. Sonra isə geniş tərkibdə görüş keçirilib.

Görüşdə "Petersberq İqlim Dialoqu"nun əhəmiyyəti və Prezident İlham Əliyevin bu tədbirdə çıxışı qeyd olundu.

Dövlətimizin başçısı tədbirə dəvətə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı COP29-la əlaqədar Almaniya ilə Azərbaycan arasında uğurlu əməkdaşlıq və heyətlər arasında görüşlərin önəmi xüsusi vurğulandı. COP29-la bağlı yaradılan "üçlük" mexanizminin əhəmiyyətinə toxunuldu, Almaniyanın COP29-la əlaqədar Azərbaycana bundan sonra da dəstək göstərəcəyi diqqətə çatdırıldı.

Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistan ilə Azərbaycan arasında sülh gündəliyinin təşəbbüskarı məhz Azərbaycan tərəfi olub. Belə ki, sülh gündəliyinin əsasını təşkil edən fundamental prinsiplər Azərbaycan tərəfindən formalaşdırılıb və təqdim olunub. Azərbaycan tərəfi, həmçinin bunun əsasında sülh müqaviləsinin mətnini hazırlayıb.

Dövlətimizin başçısı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniya Kansleri Olaf Şoltsun dəstəyi ilə Ermənistanın baş naziri ilə keçirilmiş görüşü, bu görüş çərçivəsində də məhz delimitasiya və demarkasiya məsələlərinin, sülh gündəliyinin irəlilədilməsinə dair müsbət müzakirələrin olduğunu qeyd etdi. Prezident İlham Əliyev vurğuladı ki, Almaniyanın xarici işlər nazirinin dəstəyi ilə Ermənistanın və Azərbaycanın xarici işlər nazirləri arasında görüş keçirildi və bu görüşdə sülh müqaviləsi üzrə əsaslı müzakirələr aparıldı.



Söhbət zamanı sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində iki ölkə arasında birbaşa danışıqlarda əldə edilmiş nəticələr qeyd olundu.

Prezident İlham Əliyev Qazaxıstan tərəfinin təklifi ilə Ermənistanın və Azərbaycanın xarici işlər nazirlərinin sülh müqaviləsi üzrə danışıqları davam etdirmələri üçün növbəti görüşün Qazaxıstanda təşkil olunacağını dedi.

Frank-Valter Ştaynmayer qeyd etdi ki, Almaniya tərəfi Ermənistanla Azərbaycan arasında sülh gündəliyini yaxından dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri aprelin 26-da başa çatıb.

# Qardaş dəstəyi ilə...

Dost Qırğızıstan Prezidenti Sadır Japarovun Azərbaycana növbəti səfəri uğurla başa çatsa da, bu səfərlə bağlı təəssüratlar uzun müddət yaddaşlardan silinməyəcək. İki gün ərzində dövlət başçılarının aktual müzakirələr aparmaları, çoxsaylı tədbirlərin keçirilməsi, daha 18 sənədin imzalanması, yeni sənədlərin hazırlanması ilə bağlı müvafiq qurumlara tapşırıqların verilməsi, Bakıda dünya şöhrətli qırğız yazıçısı, Azərbaycanın böyük dostu Çingiz Aytmatovun abidəsinin açılması səfərin gündəliyinin nə qədər zəngin olduğunu, tərəflərin ona necə ciddi önəm verdiklərini və məsuliyyətlə hazırlaşdıqlarını təsdiqləyir. Prezidentlərin Ağdamda Xıdırlı kənd tam orta məktəbinin birgə təməlqoyma mərasiminə qatılmaları barədə isə ayrıca bəhs etmək istərdik.

## Türk xalqlarının tarixdən gələn ənənəsi

Çətinliklər zamanı bir-birinin yanında olmaq, əlindən gələn köməyi, dəstəyi əsirgəməmək, olanını paylaşmaq Türk xalqlarının tarixdən gələn ənənəsidir. Yaxşı haldır ki, yetişən sonrakı nəsillər də soy-köklərinə bağlı olurlar, ənənələri yaşadırlar. Dost Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycanın işğaldan azad olunmuş ərazilərində ölkəsinin vəsaiti ilə məktəb inşa etmək təşəbbüsü irəli sürməsi bu ənənənin yaşamasının daha bir ifadəsidir. Azərbaycan və qırğız xalqlarının soy-kökü eynidir. Sonradan Türk boyları aynayıb-artıblar, yeni coğrafiyalara yayılıblar. Beləcə onlar arasında müəyyən fərqli cəhətlər yaranıb. Ancaq bu fərqlilik gen yaddaşında qalan dominant mənəvi yaxınlığı aradan qaldıra bilməyib. Milli-mənəvi amillər həmişə Türk xalqlarını qarşısıalınmaz cazibə qüvvəsi tək bir-birinə çəkib. Ən müxtəlif məqamlarda biz bunu müşahidə edirik. İndiki qlobal hadisələr, kataklizmlər, geosiyasi gərginliklər fonunda Türk kimliyinin önə çıxması, əsasən Xəzər-Qara dəniz hövzələri coğrafiyasında yurd salmış müxtəlif Türk xalqlarının bir çətir altında birləşmək istəklərini daha qətiyyətlə nümayiş etdirmələri, bu istiqamətdə addımlar atmaları, təsisatlanmaları da bunun təzahürüdür.





Azərbaycan 44 günlük Vətən müharibəsində təxminən 11 min kvadratkilometr ərazisisni işğaldan azad etdi. Müharibə başa çatandan sonra vaxt itirilmədən ərazilərin minalardan təmizlənməsinə və bərpasına başlanıldı. Qalib Azərbaycan "Böyük Qayıdış" Proqramını yeni strateji mərhələdə özünün beş milli prioritetindən biri kimi müəyyənləşdirdi. Qarşıya qoyulan hədəf heç də asan deyil. Bəhs olunan ərazilərdə erməni vandalları tərəfindən hər şey, hətta tarixi mədəni-dini abidələr, qəbiristanlıqlar belə dağıdılıb. Hər şeyi sıfırdan qurmaq, yaratmaq tələb olunur. Əlbəttə, Azərbaycan güclü və məsuliyyətli dövlətdir, ərazilərini, suverenliyini öz gücünə bərpa etdiyi kimi, "Böyük Qayıdış" Proqramını layiqli şəkildə reallaşdırmağı da bacaracaq. Ancaq miqyası çox böyük olan işlərin həyata keçirilməsində dost ölkələr və xalqlar da kənarda qalmırlar. Azərbaycan Vətən müharibəsi günlərində olduğu kimi, postmüharibbə mərhələsində də qardaş Türkiyəni öz yanında hiss edir. Vətən müharibəsinin lap əvvəlindən Türkiyənin Prezidenti və digər rəsmiləri "biz yanınızdayıq" deməklə xalqımıza mənəvi güc verdi. Postmüharibə mərhələsində isə qardaş ölkənin şirkətləri işğaldan azad olunmuş ərazilərdə müxtəif layihələrin yüksək peşəkarlıqla həyata keçirilməsində böyük fəallıq göstərirlər.

Bizə, həmçinin digər Türkdilli dövlətlərdən də dəstək gəlir. 2023-cü il Avqustun 23-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak ediblər. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. Burada tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib.

Daha bir oxşar hadisə cari il martın 12-də yaşanıb. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər. Prezident Kasım-Jomart Tokayevin təşəbbüsü ilə inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi qardaş qazax xalqının Azərbaycan xalqına hədiyyəsidir. Təməli 2023-cü ilin martında qoyulan Mərkəz 1,5 hektar ərazidə yaradılıb. Obyektin tikinti sahəsi 2700 kvadratmetrdir. İkimərtəbəli binada 600 uşağın bir neçə növbədə məktəbdənkənar təhsil alması üçün hər cür şərait yaradılıb. "Bu Mərkəz Qazaxıstan xalqı adından bizim hədiyyəmizdir. Hökumətin tapşırığına və mənim şəxsi göstərişimə əsasən "BI Group" özəl şirkəti bu hədiyyəni səmimi-qəlbdən, bütün xalqın adından təqdim edir. Zənnimcə, bu obyekt şübhəsiz ki, ölkələrimiz arasında rifahın, bütün əlaqələrin, hərtərəfli münasibətlərin möhkəmləndirilməsinə töhfə olacaq", - deyə Qazaxıstan Prezidenti məktəbin açılışında bildirib.

## Növbəti təşəbbüs Qırğızıstandan gəlib

İşğaldan azad edilmiş ərazilərinə böyük bağlılıq göstərən Azərbaycana növbəti dost dəstəyi Qırğızıstandan gəlib. Prezident Sadır Japarov bəhs olunan ərazilərdə ölkəsinin vəsaiti hesabına məktəb tikmək təşəbbüsü ilə çıxış edib. Artıq bu nəcib təşəbbüsün reallaşdırılması istiqamətində ilk addım atılıb.

Aprelin 25-də Prezident İlham Əliyev və Prezident Sadır Japarov Ağdam rayonunun Xıdırlı kənd tam orta məktəbinin birgə təməlqoyma mərasimində iştirak ediblər. Mərasimin keçirildiyi ərazidə quraşdırılan yurtada qırğız xalq musiqisi və milli mətbəxinin nümunələri nümayiş etdirilib.

Xıdırlı kənd tam orta məktəbinin inşası üçün 2,7 hektar ərazi ayrılıb. İki yerüstü və bir yeraltı mərtəbədən ibarət olacaq binada 22 kabinet yaradılacaq. Məktəbdə, həmçinin idman və akt zalları, 2 əmək kabineti, kitabxana, fizika, kimya və biologiya laboratoriyaları, 2 informatika kabineti, ilkin hərbi hazırlıq kabineti istifadəyə veriləcək. Məktəbin ərazisində idman meydançası, köşk, kiçik skamyalar, qazanxana yaradılacaq. Tikinti işlərinin 2024-cü ilin sonunadək başa çatdırılması planlaşdırılır. Qırğızıstan Prezidentinin təşəbbüsü ilə Qırğızıstan dövləti adından Ağdamın Xıdırlı kəndində tam orta məktəb binasının inşası iki ölkə arasında sarsılmaz qardaşlıq münasibətlərinin daha bir göstəricisidir.

***Mübariz ABDULLAYEV***

# 24 il əvvəl gətirilmiş kiçik daş parçası...

## Ağdam Cümə məscidindədir

Can xalqının bu gün də yaşatdığı gözəl bir ənənədir. Torpaq sevgisi, yurd yerlərinə bağlılıq xalqımızın gen yaddaşına hopub desək, ya-




Bu günlərdə sosial şəbəkələrdə paylaşılan bir video material anındaca gündəm oldu. Videonu izləyən hər kəs onu paylaşmağa tələsdi. Söhbət 9 may 2000-ci il tarixində ABŞ Dövlət Departamentinin xüsusi nümayəndəsi, keçmiş Minsk qrupunun həmsədri Keri Kavanonun Bakıda keçirilən görüşdə sabiq Prezident Heydər Əliyevə kiçik bağlama təqdim etməsindən gedir. Bağlamanın içində nə olduğunu öyrənən Heydər Əliyev bir andaca duyğulanır, dərhal da özünəxas olan möhkəm iradə ilə diplomata təşəkkürünü bildirir.

Bəs bağlamanın möcüzəsi nə idi? Yüksəksəviyyəli görüşdə Heydər Əliyevə bu kiçik bağlamanın təqdim olunması hansı anlamı daşıyırdı? Heydər Əliyev bağlamada nə olduğunu soruşur. Amerikalı həmsədrin cavabı belə olur: "Bu, Ağdamdakı məsciddən kiçik bir hissədir. Bu, bizim bərpa etmək arzusunda olduğumuz torpağın bir hissəsidir. Ümid edirik ki, bir gün gələcək, o böyük məscidin özü geri qaytarılacaq. Və biz də insanların orada dua etməsinə şərait yaradılmasına nail olacağıq".

Keri Kavanonun həmin davranışından təsirlənən Heydər Əliyev kövrələrək amerikalı diplomatı qucaqlayaraq öpüb. Diplomatın davranışlarında nə dərəcədə səmimi olduğunu deyə bilmərik. Hər halda torpaqlarımızın, Ağdam Cümə məscidi də daxil olmaqla tarixi-mədəni abidələrimizin dağıdılması, onilliklər ərzində işğal altında qalması və zamanında Minsk qrupunun bütün bunlara seyirçi münasibət bəsləməsi faktı acı reallıqdır. Vətən müharibəsindən sonra bütün bunlar arxada qalıb.

Böyük siyasətçi Heydər Əliyevin aldığı kiçik bağlamadan təsirlənməsi isə bir mənəviyyat, milli ruh məsələsidir. Ziyarətgahlara, müqəddəs yerlərə gedən insanların oradan tütiyələr gətirərək yaxınlarına paylamaları Azərbaycan xalqının bu gün də yaşatdığı gözəl bir ənənədir. Torpaq sevgisi, yurd yerlərinə bağlılıq xalqımızın gen yaddaşına hopub desək, yanılmarıq. Heydər Əliyev də böyük siyasətçi olmaqdan öncə hər birimizə nümunə ola biləcək böyük azərbaycanlı idi. Milli mənəviyyatımızın mükəmməl daşıyıcısı olan Heydər Əliyev öz davranışları və söylədiyi müdrik kəlamları ilə bizləri doğma Azərbaycana və xalqa daha möhkəm tellərlə bağlayırdı. Bütün varlığına Azərbaycan sevgisi və milli ruh hakim kəsilən Heydər Əliyev işğalda qalan Ağdam Cümə məscidindən gətirilən tütiyəyə biganə qala bilərdimi? Heydər Əliyevin təsirlənməsi Onun daxilindəki yanğının ifadəsi idi. Bu yanğı Heydər Əliyevə bir an da olsun rahatlıq vermirdi. O, ömrünün axırınadək torpaqlarımızın işğaldan azad edilməsi təşnəsi ilə yaşadı. Torpaqlarımızın, abidələrimizin geri qaytarılması naminə fədəkar fəaliyyət və prinsipiallıq göstərdi, müdrik gedişləri ilə müxtəlif mərkəzlərin Qarabağla əlaqədar hazırladıqları məkrli lanları pozdu, qələbəyə aparan yolun əsaslarını yaratdı. O, haqq-ədalətin öz yerini tutacağına inanırdı və bizləri də buna inandırırdı

Bu gün təsəlli yerimiz var. Ata vəsiyyətini Heydər Əliyevin oğlu və siyasi varisi İlham Əliyev yerinə yetirdi. Bu günlərdə xalqımız ekranlarda Azərbaycan Prezident İlham Əliyevin və Qırğızıstan Prezidenti Sadır Japarovun iştirakı ilə Ağdam Cümə məscidinin bərpadan sonra açılışını izləyərkən yenidən təsirləndi. Eynən böyük Heydər Əliyev kimi. İşğal dövründə Heydər Əliyevə təqdim olunmuş Ağdam Cümə məscidinə aid daş parçası da indi burada nümayiş etdirilir. Aradan on illiklər ötdü. Heydər Əliyevin inamı və vəsiyyəti ümidlərimizin sönməsinə imkan vermədi. Səbr etdik, dözdük, inandıq və haqqımız olanı əldə etdik. İlahi ədalətin təntənəsi bax budur!

***M.ABDULLAYEV***

# İlk və tarixi uçuş...

## Azərbaycan Prezidenti Füzulidən beynəlxalq səfərə yola düşüb

Azərbaycan Prezidenti İlham Əliyev "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak etmək üçün aprelin 25-də Füzuli şəhərindən Almaniyaya işgüzar səfərə gedib. Səfər Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsun dəvəti ilə reallaşıb. Bu səfərlə bağlı bir mühüm məqam isə xüsusi diqqət çəkir. Bu da Prezident İlham Əliyevin növbəti xarici səfərə işğaldan azad olunmuş ərazilərdən - postmüharibə mərhələsində sürətlə bərpası həyata keçirilən Füzuli şəhərindən yola düşməsidir. İlk dəfədir ki, dövlətimizin başçısı Füzuli Hava Limanından beynəlxalq səfərə gedib.

**Qalib Azərbaycanın niyyəti və gücü**

Müharibədən və pandemiyadan çıxmış ölkənin yenə də öz imkanları hesabına bu cür nəhəng infrastruktur yaratması ölkəmizin niyyətini və gücünü bütün dünyaya nümayiş etdirir. Niyyətimizi dövlətimizin başçısı müxtəlif auditoriyalarda dəfələrlə bəyan edib: İşğaldan azad edilmiş ərazilərimiz dünyanın ən gözəl, cənnət məkanına çevriləcək. Çevrilir də. Bəhs olunan ərazilərin siması demək olar ki, hər ötən gün dəyişir. Müasir infrastruktur yaradılır, yollar salınır, su, elektrik xətləri çəkilir, qazlaşdırma ilə bağlı layihələr hazırlanır. Yerlə-yeksan edilmiş ərazilərdə müasir yanaşmalar əsasında kəndlər, şəhərlər salınır. Bir sözlə, Qarabağa onun əsl sahibləri, canıyananları gəliblər və ora soydaşlarımızın ilk köçü başlayıb.

İşğaldan azad olunmuş ərazilərdə göülən ən mühüm işlərdən biri isə burada üç hava limanının yaradılmasıdır. Artıq Füzulidə, Zəngilanda inşa olunan hava limanları istismara verilib. Laçın Hava Limanının tikintisi isə sürətlə davam etdirlir. İşğaldan azad olunmuş ərazilərdə Füzullidə, Zəngilanda və Laçında olmaqla üç beynəlxalq səviyyəli hava limanının inşası bir sıra nöqteyi-nəzərdən önəmlidir. Hava limanlarının Azərbaycanın Ermənistanla sərhəd bölgələrində möhkəmlənməsi üçün yeni imkanlar açacağının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Bu, respublikamız üçün strateji önəm daşıyır. Məlumdur ki, bəhs olunan ərazilər çətin keçilən reylef şəraitinə malikdir. Xüsusilə qış aylarında buraya nəqliyyat vasitələrinin gediş-gəlişi çətinləşir. Qarabağda üç məkanda yaradılan hava limanları yenidən qurulan yüksək səviyyəli yollarla birlikdə bu çətinliyə birdəfəlik son qoymaq, isti havalarda olduğu kimi, qış aylarında da Kəlbəcərə, Laçına, Qubadlıya, Zəngilana və digər yaşayış məntəqələrinə gedib-gəlmək imkanları yaradır.

İşğaldan azad edilmiş ərazilərdə hava limanlarının inşasının önəmini şərtləndirən digər bir mühüm amilə diqqət yetirək. Qalib Azərbaycan Şərqi Zəngəzuru regional haba çevirmək niyyətindədir. Söhbət əslində, regionda yaranan yeni reallıqlardan, Xəzər-Qara dəniz hövzələri və daha geniş coğrafiyada formalaşacaq əlverişli, rəqabətqabiliyyətli daşıma-logistika-tranzit imkanlarından gedir. Bu, bölgənin bütün dövlətləri üçün böyük iqtisadi üstünlük deməkdir. Şübhəsiz ki, yeni reallıqların formalaşmasında Azərbaycanın rolu və mövqeyi aparıcıdır. Ölkəmiz Avrasiya məkanında cəlbedici nəqliyyat dəhlizinin formalaşmasında dominantlıq mövqeyini mükəmməl infrastruktur yaratmaqla möhkəmləndirmək istəyir. Ölkəmizin ərazisindən keçən Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinə inteqrasiya ediləcək hava limanları yeni yaradılacaq Zəngəzur dəhlizinin çox mühüm həlqələrini təşkil edəcək. Dünyanın dörd bir tərəfindən yeni aeroportlara çatdırılacaq yüklər buradan digər beynəlxaq səviyyəli marşrutlara istiqamətləndiriləcək.



Başqa aktual bir məsələ daxili daşımalarla bağlıdır. İşğaldan azad edilən ərazilərdə bərpa işlərinin genişlənməsi ilə əlaqədar oraya daha böyük həcmlərdə yüklərin çatdırılmasının zəruriliyi getdikcə artır. Hava limanları bu tələbatı qarşılayacaq. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə yaşayacaq və yaxud Şuşanı, Kəlbəcəri, Laçını, Qubadlını, Zəngilanı, Cəbrayılı, Ağdamı görmək, turist kimi bu yerlərə səfərlərə getmək istəyən insanlar üçün rahat gediş-gəliş imkanı yaranıb.

İşğaldan azad olunmuş ərazilərdə üç hava limanının inşası, həmçinin hərbi nöqteyi-nəzərdən də çox önəmlidir. Müharibə başa çatandan sonra Azərbaycan dövlət sərhədləri boyunca yeni zastavalar inşa edir. Onlardan bir neçəsi Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Yeni tikilən aeroportlar sərhəd bölgələrimizə hərbi təyinatlı yüklərin operativ qaydada çatdırılmasını təmin edəcək.

**Qarabağın ilk hava qapısı**

Füzuli Beynəlxalq Hava Limanı 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə istifadəyə verilib. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir.

Qeyd edək ki, açılışdan sonra Füzuli Beynəlxalq Hava Limanına və oradan digər istiqamətlərə uçuşlar uğurla baş tutur. Füzuli Hava Limanı azad Qarabağımızın ilk hava qapısıdır. Dövlət başçımızın növbəti beynəlxalq səfərinə paytaxtdan deyil, məhz Füzulidən yola düşməsi son dərəcə qürurvericidir. Bir vaxtlar biz bunu təsəvvürümüzdə belə canlandıra bilməzdik. İndi isə dünya azərbaycanlıları möhtəşəm hadisələrin sevincini və qürurunu yaşayırlar...

***Mübariz FEYİZLİ***

# "Astana formatı" reallaşır...

Cənubi Qafqazda münasibətlərin normallaşması prosesi qlobal miqyasda diqqətlə izlənir. Bunun nəticəsidir ki, ayrı-ayrı vaxtlarda bir sıra dövlətlər bu məsələnin həlli ilə bağlı açıq münasibət sərgiləyiblər. Bütünlükdə sülh prosesinə sadiqlik nümayiş etdirən Azərbaycan isə məsələlərin həlli ilə bağlı ikitərəfli görüşlərin neytral zonalarda - hər iki ölkə üçün uyğun sayılan məkanlarda keçirilməsinə hər zaman tərəfdar olub. Bizim üçün əsas məsələ müdaxilə edilmədən iki tərəfin münasibətlərinin müəyyənləşməsi istiqamətində uğurların əldə edilməsidir.

Yeri gəlmişkən, aprel ayında iki dövlətin müvafiq delimitasiya və demarkasiya komissiyalarının görüşü və əldə olunan razılıqlar sülh prosesində yeni mərhələ başladıb. Artıq sülhlə bağlı mövqelər aydın şəkildə ifadə olunur və ikitərəfli görüşlərin intensiv hal alması mütləq şərtə çevrilib. Təsadüfi deyil ki, iki ölkənin XİN başçılarının yeni görüşü də planlaşdırılır. Rəsmi Bakı Qazaxıstanda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünə razılıq verib. Prezident İlham Əliyev aprelin 23-də ADA Universitetində təşkil olunan "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda çıxışında bildirib ki, əgər Ermənistan da buna razılaşsa, XİN rəhbərlərinin növbəti görüşü Qazaxıstanda keçiriləcək.

Ermənistan tərəfi də görüşlə bağlı məsələyə razıdır - lakin dəqiq tarix hələ razılaşdırılmayıb. Bunu Ermənistanın Xarici İşlər

## XİN başçıları Qazaxıstanda görüşəcək

Nazirliyinin mətbuat katibi Ani Badalyan bildirib. O qeyd edib ki, Ermənistan Cənubi Qafqazda davamlı sülhün əldə edilməsinə yönəlmiş vasitəçilik səylərini və istənilən danışıq platformalarını dəstəkləyir.

## Son proseslər mövqelərin yaxınlaşmasından xəbər verir

Azərbaycan sülh gündəliyini dəstəkləyir - ölkəmizin sülh prosesi ilə bağlı mövqeyi bəlli və şəffafdır. Sülh danışıqları üçün baza prinsipi kimi irəli sürülən məsələlər, eyni zamanda, dekabr və apreldə əldə olunan razılıqlar iki dövlətin münasibətlərinin yaxınlaşmasında əsaslı rol oynamaq imkanındadır. Bu, həm qarşılıqlı etimadın yüksəlməsinə, həm də yeni reallıqlarda aradan qaldırılacaq problemlərin həllinə yaxından kömək olar. Azərbaycan hər zaman bəyan edib ki, sülhün və təhlükəsizliyin davamlı olması üçün səy göstərir. İndiki halda - artıq iki dövlətin sərhədlərinə ilk dirəklərin basdırılması faktı fikri daha real edir. Qeyd edək ki, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və Qarabağı da Azərbaycan torpaqları kimi tanıdığını bəyan etməsi, COP29-a ev sahibliyini dəstəkləməsi, 4 kəndin dinc yolla qaytarılması siyasi razılaşmalar üçün mühüm baza sayıla bilər. İrəvanın məsələdəki səmimiyyəti vacib faktorlardandır. Bu ölkənin yürütdüyü siyasət, məsələlərə münasibəti regionda təhlükəsizlik arxitekturasının daha da gücləndirilməsinə töhfə verməyə istiqamətlənməlidir - başqa sözlə, Paşinyan hakimiyyətinin ortaya qoyacağı siyasi iradə sülhün imzalanmasını daha da tezləşdirə bilər...



## Qazaxıstan prosesin müsbət nəticəsində maraqlıdır...

Cənubi Qafqazda sülhün və davamlı sabitliyin formalaşması isə böyük bir coğrafiyanın - Orta Asiya - Cənubi Qafqaz - Kiçik Asiya bölgəsi üçün mühüm imkanlar, perspektivlər formalaşdırır. Şərq - Qərb tranzitinin yeni seqmenti kimi ortaya çıxacaq bu tranzit imkanlar bütövlükdə, qlobal iqtisadi münasibətlərə yeni ruh vəd edir. Bunun nəticəsidir ki, regonal layihələrin müzüm tərəfdaşları bu prosesin uğurlu həllinə nail olunmasının tərəfdarı kimi çıxış edir. Vurğulanmalıdır ki, Astananın yeni dönəmdə Ermənistan ilə Azərbaycan arasında müzakirə platformasına çevrilməsi imkanları bu ayın ortalarında Qazaxıstan Prezidenti Kasım - Jomart Tokayevin İrəvana səfəri zamanı müzakirə predmeti olmuşdu. Qazaxıstan Prezidentinin Astananın İrəvan və Bakının sülh müqaviləsi bağlamaq istəyini alqışlamasını önə çəkməsi, xoşməramlılıq missiyasını üzərinə götürərək danışıqlar üçün platforma təqdim etməyə hazır olduğunu bildirməsi isə bu fikirləri daha da qətiləşdirmişdi. Kasım-Jomart Tokayev İrəvanda brifinqdə bildirmişdi ki, "Əsas məqsədimiz dost ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmaq, regionda sülh və davamlı sabitlik üçün yollar açmaqdır".

Görünən budur ki, Astana regionun gələcək sabit inkişafında maraqlı olduğunu artıq əməli fəaliyyəti ilə ortaya qoymaqda israrlıdır. Həm Orta Dəhliz seqmentində, həm də TDT platformasında Azərbaycanla tərəfdaş olan Qazaxıstan bölgədə münasibətlərin tənzimlənməsində, Şərq-Qərb tranzitinin diversifikasiya edilməsini istəyir. Eyni zamanda, Tokayevin cəmisi bir ay öncə Bakıya səfər etməsi də diqqətdən yayınmamalıdır. Təbii olaraq, Tokayev Azərbaycanın mövqeyini dəqiqləşdirib və İrəvandan "verilən bəyanat" bunun göstəricisidir. Qazaxıstan Azərbaycan tərəfinin şərtlərini bilir və sülhün yalnız bu çərçivədə imzalamaq perspektivini anlayır. Bu mənada, hələlik XİN başçıları səviyyəsində danışıqlar prosesinin yeni coğrafiyaya daşınması müsbət perspektivin ilkin işartısıdır...

***P.İSMAYILOV***

# Zərif işığın Zərifəsi...

## Sabah oftalmoloq-alim Zərifə Əliyevanın doğum günüdür

*Yeganə BAYRAMOVA*

O, istedadlı göz həkimi idi. Qaranlıq düşən gözlərə işıqlı gündüzlərin "qapı"larını açırdı. Görkəmli dövlət xadimi Əziz Əliyevin qürurlu qızı, xalqın xilaskarı Ümummilli Lider Heydər Əliyevin vəfalı xanımı, Respublikamızı böyük inkişaf yollarına, tarixi uğurlara aparan Prezident İlham Əliyevin anası olmaq isməti ilə şərəflənmişdi...

Ömrü boyu xalqına, vətəninə layiqincə xidmət etmişdi Zərifə xanım. O, oftalmoloq-alim, fədakar ziyalı, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, akademik idi. İnsanlara inam, nikbinlik təlqin edir, səmimi bir müdrikliklə faydalı məsləhətlər verir, böyük nəzakət və nəvazişlə onları yanlış yoldan çəkindirir, pis fikirlərdən daşındıra bilirdi. Ağlagəlməz bir lütfkarlıq və səbrlə həmsöhbətini dinləyərək, diqqətini ən əsas və vacib məqamlara cəmləşdirərdi. İşinin həddindən artıq olmasına baxmayaraq, məsələləri ən xırda təfərrüatlara qədər yadda saxlayır, hadisələrin gedişini düzgün hesablamağı bacarırdı.

Aprelin 28-də Zərifə xanım Əliyevanın anadan olmasından 101 il ötür. Onun tədqiqatları, alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində xüsusi mərhələ təşkil edir. O, Azərbaycan Tibb İnstitutunu bitirəndən sonra təhsilini Moskvada, Həkimləri Təkmilləşdirmə İnstitutunda davam etdirib. Əmək fəaliyyətinə 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Həkimləri Təkmilləşdirmə İnstitutunda elmi işçi kimi başlayıb və bütün ömrünü tibbin oftalmologiya sahəsinə həsr edib.

Zərifə Əliyeva həkimlik peşəsini çox uca tuturdu. Həkimi Günəşə bənzədərək deyirdi: "Həkim insanlara Günəş qədər lazımdır". 1940-1950-ci illərdə Azərbaycanda göz xəstəlikləri, xüsusən traxoma geniş yayılmışdı. İnsanları bu bəladan xilas etmək, eləcə də digər aktual problemin - gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, onların effektli müalicə metodlarını və profilaktik tədbirləri işləyib-hazırlamaq lazım idi. Beləliklə, gənc tədqiqatçının elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirir və o, elmi istiqamətlərinin ilkin mərhələsini traxomanın müalicəsinə həsr edir. Bu xəstəliyin daha geniş yayıldığı rayonlara gedir, xəstəlik ocaqlarını aşkarlayır, göz həkimlərinə mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı.

Zərifə Əliyeva həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olub, "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb.

Zərifə xanım həmkarlarının yaddaşında əzəmətli, nəzakətli insan kimi qalıb. O, yalnız biliyini, elmini tələbələrinə öyrədən müəllim olmayıb, həm də ölkəmizin gələcəyinə işıq saçan gəncliyə ana qayğısı göstərib. Bu, əsl Azərbaycan qadınının alim, müəllim kimi xalqına sevgisi, gələcəyi üçün xidmət nümunəsidir!

Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Təbii ki, bu adların hər biri qürur, iftixar mənbəyidir. Amma bu adlar sırasında ən şərəflisi Ana adıdır. Zərifə xanım Ümummilli Liderin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin anasıdır.



Xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadan Prezident İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq demişdi: "Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o, həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur".

Zərifə xanım az yaşadı. O, 1985-ci il aprelin 15-i Moskva şəhərində əbədiyyata qovuşdu. Zərifə xanımın dəyərli və praktik elmi irsi 14 monoqrafiyada, 150-dən artıq fundamental məqalədə Moskvada, Bakıda və xarici ölkələrdə çap olunub. Görkəmli alim-oftalmoloqun elmi irsi bütün tarixi dövrlərdə gənc alimlər üçün fədakarlıq nümunəsi, elmə, xalqına və vətənə xidmətin yüksək meyarı olaraq öz aktuallığını qoruyacaq.

# "Mənəvi dəyərlərin təcəssümü: qəlblərdə yaşayan nurlu insan"

*Akademik Zərifə Əliyevanın anadan olmasının 101-ci ildönümünə həsr olunmuş tədbir keçirilib*









Aprelin 26-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının və YAP Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə görkəmli alim, Əməkdar elm xadimi, akademik Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Mənəvi dəyərlərin təcəssümü: qəlblərdə yaşayan nurlu insan" mövzusunda tədbir keçirilib.

Tədbirdən öncə Zərifə Əliyeva adına parkda görkəmli alimin abidəsi və Ulu Öndər Heydər Əliyevin YAP Binəqədi rayon təşkilatının inzibati binası qarşısındakı abidəsi ziyarət edilərək önünə gül dəstələri düzülüb.

YAP Binəqədi rayon təşkilatının inzibati binasında keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, akademik Zərifə xanım Əliyevanın və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad olunub. Dövlət Himni səsləndirilib.

Sonra "Əsl məhəbbət haqqında" sənədli film nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədr müavini Sevinc Abdullayeva bildirib ki, genişmiqyaslı fəaliyyəti ilə xalqımızın rəğbətini qazanmış Zərifə xanım Əliyevanın şərəfli ömür yolu mənəviyyat, kamillik və müdriklik məktəbidir. Xalqımıza məxsus xeyirxahlıq, mərhəmətlilik kimi nəcib keyfiyyətləri, saf mənəvi dəyərləri, eləcə də müasirliyi və əməksevərliyi nurlu şəxsiyyətində cəmləyən qayğıkeş ana, dəyərli alim, nüfuzlu ictimai xadim olan Zərifə xanım Əliyeva insani keyfiyyətləri ilə əsl Azərbaycan qadınının ideal obrazını yaradıb. "Azərbaycan tibb elmində silinməz izlər qoymuş akademik Zərifə xanım Əliyevanı xatırlayanda həm də göz önündə mənəvi kamilliyin uca zirvəsinə yüksəlmiş görkəmli elm fədaisinin nurlu çöhrəsi canlanır. Onun simasında nəcib Azərbaycan qadını, vəfalı ömür-gün yoldaşı, fədakar ana obrazı görürük" ,-deyə S.Abdullayeva vurğulayıb.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva deyib ki, həkim-oftalmoloq, elm fədaisi, vətənpərvər alim, xeyirxah insan, sədaqətli ömür-gün yoldaşı, cəfakeş ana kimi xatirələrdə yaşayan Zərifə xanım Əliyeva hər bir azərbaycanlı üçün fəxarət və qürur mənbəyidir: "Böyük Çin filosofu Konfutsi yazırdı ki, hər bir insanın həyat yolunu onun mənəvi dünyası, xarakteri müəyyən edir. İnsanın mahiyyəti, mənəvi keyfiyyətləri, həqiqətən də, onun əməllərində, fəaliyyətində real təcəssümünü tapır. Dərk edilmiş məsuliyyətdən irəli gələn bu fəaliyyət belə insanların cəmiyyətdəki layiqli mövqeyini, ictimai statusunu müəyyənləşdirir. Yəqin, elə buna görədir ki, xeyirxah və alicənab insan kimi tanınaraq ömrün kamillik zirvəsinə yetişmək, çalışdığı sahənin mükəmməl bilicisi kimi insanlara, cəmiyyətə məsuliyyətlə xidmət edə bilmək xoşbəxtliyi heç də hamıya nəsib olmur. Zərifə xanım Heydər Əliyev kimi görkəmli bir şəxsiyyətin ömür-gün yoldaşı olaraq onunla çiyin-çiyinə addımlamaq, qayğılarına ortaq olmaq, onun ocağını isitmək və Azərbaycanın taleyində önəmli rol oynayacaq övladlar yetişdirmək kimi bir missiyanı da şərəflə yerinə yetirmişdi. Bəlkə də, çoxlarının həsəd aparacağı bu ömür, əslində, çox böyük məsuliyyətlər yüklənmiş bir həyat idi. Lakin o, bütün vəzifələrinin öhdəsindən uğurla gəlir, əl uzatdığı hər işə sevgiylə yanaşırdı. Akademik N.Puçkovskayanın təbiri ilə desək, "Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi". Onun xatirəsi hər bir azərbaycanlı üçün əzizdir".

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri, tibb elmləri doktoru, professor Tofiq Cahangirov çıxışında bildirib ki, sıravi həkimlikdən akademikliyə qədər yüksəlmiş Zərifə xanım Əliyeva oftalmologiya elminin inkişafına dəyərli töhfələr verib, bu sahə üzrə yüksək ixtisaslı kadrlar yetişdirilməsinə böyük əmək sərf edib. Akademik Zərifə xanım Əliyevanın zəngin irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir: "Onun fəaliyyət göstərdiyi dövrdə Azərbaycanda bir sıra göz xəstəlikləri geniş yayılmışdı, traxoma deyilən dəhşətli bəla tüğyan edirdi. Zərifə xanım Əliyeva məhz belə bir vaxtda Moskvadan Vətənə qayıdaraq Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlayıb. Traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, xəstəlik ocaqlarını aşkarlayır, göz həkimlərinə mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı. Çox keçmədən Zərifə xanım traxoma xəstəliyinin başlanğıc dövründə sintomisinin tətbiqində uğurlu nəticələrə nail olur. Tədqiqatlarının yekunu olaraq 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etdi. Onun təklif etdiyi müalicə metodu tezliklə geniş təcrübi tətbiqini tapdı və nəticədə respublikada traxoma bir xəstəlik kimi ləğv olundu. Zərifə xanım Əliyeva Moskvada, M.Helmholts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın kimya sənayesi işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru alimlik dərəcəsi verilib. 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə akademik Zərifə Əliyevaya keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafat verilmişdi. O, həmin mükafata layiq görülən ilk qadın alim idi. Bir-birindən dəyərli 150-dən çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin və dərs vəsaitlərinin müəllifi olan, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın açdığı yol ildən-ilə genişlənir, zəngin irsi, pedaqoji fəaliyyəti dönə-dönə araşdırılır, öyrənilir və neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir".



Çıxış edən YAP Veteranlar Şurasının üzvü, Modern Ailə və İnkişaf İctimai Birliyinin sədri Zərifə Quliyeva bildirib ki, cəmiyyətdə tutduğu yüksək mövqeyə baxmayaraq, Zərifə Əliyeva ilk növbədə ailəsinin qayğıları ilə yaşayırdı. Ulu Öndər Heydər Əliyev qazandığı nailiyyətlərdə vəfalı ömür-gün yoldaşı Zərifə xanımın böyük töhfələrinin olduğunu daim vurğulayırdı. Hər bir kəsə örnək olası bir ailə quran bu şəxsiyyətlər yüksək mənəviyyat, ali mərhəmət, misilsiz insanpərvərlik, dəyərli vətəndaşlıq xüsusiyyətləri ilə bir-birlərini tamamlamışlar. "Zərifə xanımın həyatını mənalandıran nə varsa - onun elmi, ailəsi, xeyirxahlığı, səmimiyyəti, insanlara doğma münasibəti - hamısı ruhundan, nurundan şölələnmişdi. Yaxından tanıyan həmkarları həmişə böyük rəğbətlə qeyd edirlər ki, görkəmli alim övladlarına çox bağlı, onların tərbiyəsi üçün bütün enerjisini sərf edən valideyn idi. Cənab İlham Əliyev kimi dünya miqyasında tanınan və qəbul olunan bir şəxsiyyətin qazandığı nailiyyətlərdə, şübhəsiz ki, valideynlərinin düzgün tərbiyəsi, övladı müdriklik formalaşdırmaq ənənəsi mühüm rol oynayır",- deyə Z.Quliyeva vurğulayıb.

Milli Məclisin deputatı Müşfiq Məmmədli isə çıxışında bildirib ki, 150-dən artıq elmi əsərin müəllifi olan akademik Zərifə Əliyeva çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərinə görə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. Bununla yanaşı, görkəmli alim SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fədakarcasına çalışıb. O, respublika "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş ittifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü, o cümlədən "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olub. Bu, Zərifə xanımın ictimai fəaliyyətinin də respublikamız üçün faydalı, səmərəli olduğunu göstərir.

Onun sözlərinə görə, Zərifə xanım Əliyeva Azərbaycan naminə misilsiz işlər görüb: "O, vəfalı ömür-gün yoldaşı, qayğıkeş ana kimi də bu missiyasını ləyaqətlə yerinə yetirib. Zərifə xanım cənab İlham Əliyev kimi övlad yetişdirib. Heydər Əliyev və Zərifə Əliyeva məktəbindən dərs alan Prezident İlham Əliyev ata vəsiyyəti ilə yanaşı, xalqa, dövlətə, Vətənə sədaqət andını gerçəkləşdirərək Azərbaycana tarixi nailiyyətlər qazandırıb, ölkəmizin adını qalib və qüdrətli dövlətlər sırasına yazdırıb. Buna görə də həm Ulu Öndər Heydər Əliyevin, həm də Zərifə xanım Əliyevanın ruhu şaddır".

# Ən yaxşı 10 ölkədən biri...

## Azərbaycanda xarici borcun ÜDM-də nisbəti 8 faizə düşüb

Prezident İlham Əliyev ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda çıxışı zamanı ölkəmizin güclü maliyyə sabitliyinin təmin edildiyini və dünyada ən aşağı borc yükünə malik dövlətlərdən biri olduğunu xatırladıb. Qeyd edib ki, Azərbaycan iqtisadiyyatı özünü təmin edən güclü iqtisadi imkanlara malik olmaqla, həm də bütün xarici öhdəliklərini tam vaxtında yerinə yetirir. Bunun nəticəsidir ki, hazırda ölkəmizin xarici borcu ümumi daxili məhsulun (ÜDM) 8 faizinə bərabərdir.

Azərbaycanın xarici borcunun azaldılması üçün hökumətin icra etdiyi borcun idarə olunmasına dair strategiya sənədi son 5 ildə müəyyən edilmiş hədəfə tam çatmağa imkan verib. Belə ki, 2018-ci ilə qədər Azərbaycanın xarici dövlət borcunun çəkisi ÜDM-də 16,7 faizə bərabər idi. Sonrakı illərdə bu rəqəm tədricən aşağı düşdü və hədəf 10 faizdən də aşağı rəqəm idi. Beləliklə, 2024-cü il aprelin 1-nə olan göstəricilərə əsasən, Azərbaycanın xarici dövlət borcu 5 milyard 507,3 milyon dolları ekvivalentinə bərabər olub ki, bu da ÜDM-in 8 faizi deməkdir. Azərbaycan xarici dövlət borcunun ÜDM-də nisbətinə görə, dünyada ən yaxşı vəziyyətdə olan 10-luq ölkəsi sırasında yer alır.

Ölkəmzi xarici borc yükünə görə, region və dünya ölkələri arasında daha əlverişli və sabit mövqeyə malikdir. Belə ki, Cənubi Qafqaz regionu ölkələrində xarici borcun ÜDM-də nisbəti 40-50 faizə bərabərdir. Ermənistan xarici borcun həcminə görə, bu bölgədə ən təhlükəli ölkələr sırasındadır, bu ölkənin xarici dövlət borcu 2024-cü ilin birinci rübündə 10,9 milyard dollar olmaqla ÜDM-in 50,6 faizini təşkil edir.

Mövcud vəziyyət göstərir ki, Ermənistanın öz maliyyə potensialının aşağı olması səbəbindən hökumət büdcə xərclərini yerinə yetirmək üçün borclanmaya məcbur olur. 2024-cü ildə hökumət öz sosial-iqtisadi öhdəliklərini icra etmək üçün kənardan əlavə olaraq 1,4 milyard dollar borc alıb. Hazırda Ermənistanda adambaşına düşən borcun həcmi 3,6 min dollar təşkil edir ki, bu da dünyada ən pis göstəricilərdən biridir.

Borcun ÜDM-ə nisbətinə görə, Gürcüstanın da borc yükü Azərbaycanla nisbətdə xeyli yüksəkdir. Bu ölkənin xarici borcunun ÜDM-ə nisbəti 43%-dən yuxarıdır. Gürcüstanda adambaşına düşən borcun həcmi 2,8 min dollar təşkil edir. Azərbaycanda isə adambaşına düşən borcun həcmi 540 dollardır.

Hazırda Cənubi Qafqaz ölkələrində borcun strateji rezervlərin nisbətinə görə də, Azərbaycan ən yaxşı mövqeyə malikdir. Ölkəmizin starteji valyuta ehtiyatlarının həcmi 68 milyard dolalr olmaqla borcu 12,4 dəfə üstələyir. Digər region ölkələrindən Ermənistanda rezervlərin həcmi 5,3 milyard dolar olmaqla borcdan 2 dəfə azdır. Gürcüstanın strateji ehtiyatlarının həcmi isə 13,8 milyard dolar olmaqla təxmini olaraq borcla eyni məbləğə malikdir.

Göründüyü kimi Azərbaycanın güclü milli təhlükəsizlik yastığı xarici borcu tamamilə bağlamağa imkan verir. Azərbaycan öz rezervlərini cəmi 8 faizini xərcləməklə xarici borcu sıfırlaya bilər.



Xarici borcla bağlı digər bir məqam beynəlxalq bazarlarda yeni borc alma imkanlarının səmərəliliyi və ölkənin reytingi ilə bağlıdır. Azərbaycanın ÜDM-ə nisbətdə aşağı borc səviyyəsi və yüksək strateji valyuta ehtiyatları ölkəmizin tədiyyə qabiliyyəti barədə beynəlxalq maliyyə bazarlarında olduqca müsbət rəy formalaşdırıb. Həmçinin, ölkəmizdə ictimai-siyasi, iqtisadi və sosial sabitlik, aydın ifadə olunmuş siyasi iradə və perspektivlər xarici borclar üçün risk səviyyəsini aşağı salır. Belə ki, xarici maliyyə institutları borcların azaldan ölkələrə növbəti borc paketi ayırarkən daha aşağı faizlə və uzunmüddətli şərtlərlə verir. Çünki, borcu qaytarma imkanları yaxşıdır. Bu baxımdan bu gün Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Səudiyyə Fondu və digər beynəlxalq institutlar Azərbaycana ən sərfəli kreditlər təklif edirlər. Azərbaycanın isə dayanıqlı və özünün güclü maliyyə potensialının formalaşması əlavə borclanmaya getməyə ehtiyac yaratmır.

Həmin maliyyə qurumları yüksək xarici borcu olan və yenə də əlavə borc istəyən ölkələrə isə daha yüksək faiz və yaxımmüddətli şərtlərlə kreditlər verir. Məsələn, Ermənistan borcunu azaltmaq əvəzinə artırdığından beynəlxalq maliyyə institutları bu ölkəyə daha ağır şərtlərlə kreditlər verir ki, bu da yeni risklər deməkdir.

Eyni zamanda, xarici borcun çəkisi və milli öhdəliklərdə nisbəti də ölkələrin beynəlxalq kredit reytinqlərinə də ciddi şəkildə təsir edir. Bu baxımdan, Azərbaycan kredit reytinqinə görə bölgədə ən yaxşı mövqedədir, ölkəmizin beynəlxalq reytinq "Fitch Ratings" və "Mudz" beynəlxalq reytinq agentlikləri tərəfindən 2023-cü ildə uzunmüddətli yerli və xarici valyutada reytinqi "BB+" səviyyəsində təsdiq edilib, proqnoz isə "sabit"dən "pozitiv"ə yüksəldilib. Gürcüstanın reytinqi "BB -" səviyyəsində, Ermənistanın kredit reytinqi isə "B" səviyyəsindədir.

Beləliklə, Azərbaycan xarici borclanmanı fiskal dayanıqlığın tərkib hissəsi kimi nəzərdən keçirir və səmərəlilik prinsipini əsas götürür və bu strategiya öz uğurlu nəticələrini verməkdədir.

*E.CƏFƏRLİ*

# Heydər Əliyev Fondu Ulu Öndərimizin arzularını, əməllərini yaşadır

Ümummilli Lider, görkəmli ictimai - siyasi xadim, müstəqil dövlətimizin qurucusu Heydər Əliyevin mənəvi irsi zəngin və ölməzdir. Öz həyatını Azərbaycan xalqının firavanlığına, xoşbəxtliyinə sərf edən, fəaliyyətinin bütün dövrlərində ölkəmizi inkişaf etdirən və dünyaya tanıtdıran unudulmaz rəhbərimizin vətən qarşısında xidmətləri xalqımızın qəlbində yaşayır və əsrlər boyu yaşayacaqdır.

Çünki bu ömrün anları, günləri və illəri Azərbaycan xalqı ilə bərabər, bəşəriyyətin gələcəyinə, dünyada sülhün, azadlığın, əminamanlığın bərqərar edilməsinə hesablanmışdır və bəşəri ideyalarla yoğrulmuşdur, cilalanmışdır.

80 illik mənalı bir ömrün hər səhifəsində Azərbaycanın, xalqın taleyüklü məsələləri, - sevinci, vüsalı, inkişafı, ağrı - acısı, yurd salıb və hər bir anın məqsədi - amalı, dəyəri əbədiləşmişdir. İkinci dünya müharibəsinin dəhşətlərini yaşayan, təhlükəsizlik orqanlarında çətin, məsuliyyətli yol keçən, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə rəhbərlik edən, Sov. İKP Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin sədri və ölkə Prezidenti vəzifələrində çalışan Heydər Əliyev fəaliyyətinin bütün dövrlərini gərgin, səmərəli zəhməti ilə mənalandırılmış, hər anı qiymətli etmiş, nəsillər üçün ölməz bir mənəvi irs qoyub getmişdir.

Bu irsi qiymətləndirməyi, təbliğ etməyi, ölməz rəhbərimizin bəşəri arzularını, əməllərini nəsildən - nəslə ötürməyi Azərbaycan xalqı özünün müqəddəs vəzifəsi hesab edir. Heydər Əliyevin azərbaycançılıq, birliyimiz, tariximiz, dilimiz, mədəniyyətimiz, dinimiz, inkişafımız uğrunda mübarizə əzmini, qətiyyətini, uğurlarını və bu amalların, əməllərinin nəticələrini, əhəmiyyətini vurğulamaq, araşdırmaq, təhlil etmək, aşılamaq tarixi bir missiyadır, şərəfdir, qürurvericidir. 2004 - cü ildə fəaliyyətə başlamış Heydər Əliyev Fondunun, Fondun Prezidenti hörmətli Mehriban xanım Əliyevanın bu sahədə fəaliyyəti



əvəzsizdir və ən yüksək qiymətə layiqdir. Fond Heydər Əliyevin fəaliyyətinin bütün sahələrini əhatə edən və onun təbliğinə geniş imkanlar yaradan çox mühüm proqram və layihələrin reallaşmasını təmin etməklə Ulu Öndərimizin ölkəmizin sosial - iqtisadi, mədəni inkişafı üçün, xalqın maddi rifahının yaxınlaşdırılması naminə həyata keçirdiyi siyasətin öyrənilməsi sahəsində böyük işlər görmüş, mühüm tədbirlər həyata keçirmişdir.

Bu proqram və layihələr, tədbirlər sosial, iqtisadi, mədəni, ictimai həyatımızın bütün sahələrini əhatə etməklə, elmimizə, təhsilimizə, mədəniyyətimizə, səhiyyəmizə, idmanımıza, təbiətimizə öz töhfələrini vermişdir. Milli - mənəvi dəyərlərimizin, mədəniyyətimizin təbliğində və tanıdılmasında Heydər Əliyev Fondunun rolu tarixi əhəmiyyətə malikdir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə vaxtaşırı muğam müsabiqələrinin keçirilməsi və muğam sənətinin böyük şöhrət qazanması milli mənliyimizin təsdiq edilməsi, sənətimizin ucalığının və ölməzliyinin, ona qayğı və ehtiramın bir nümunəsidir.

Xeyirxahlıq əməlləri, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərilməsi Fondun fəaliyyətinin əsas istiqamətlərindəndir. Minlərlə insanın sağlamlığı qeydinə qalmaq, ağır durumda olan insanlara həyat vermək, çıxılmaz xəstəliklərə düçar olan uşaqları, sənət adamlarını, qaziləri, ziyalıları xarici ölkələrdə müalicə etdirmək insanlığın, xeyirxahlığın ifadəsidir. Fond insanların yaradıcı potensialının , bilik və qabiliyyətinin üzə çıxarılmasına, uşaq və gənclərin biliklərə hərtərəfli yiyələnməsinə, layiqli bir vətəndaş kimi yetişmələrinə, mənəvi dəyərlərin qorunmasına böyük önəm verir və bu sahədə həyata keçirilən layihələr uğurludur.

Fondun vitse - Prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Xocalıya ədalət “ kompaniyası öz mahiyyətinə və əhəmiyyətinə görə nəinki xalqımız, sülhsevər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmış, özünə çoxsaylı tərəfdaşlar tapmışdır. Bir çox ölkələrin parlamentləri, beynəlxalq təşkilatlar Xocalı soyqırımına hüquqi - siyasi qiymət vermiş, müxtəlif səpkili qərarlar, qətnamələr qəbul etmişlər. Soyqırımın tanıdılması, xalqımızın başına gətirilən müsibətlərin dünya ictimaiyyətinə çatdırılması tədbirləri sistemli şəkildə bu gün də davam etdirilir. Bu şəhidlərimizin ruhuna böyük hörmət və ehtiramın ifadəsi olmaqla bərabər, həm də haqqın, ədalətin bərpasına bir çağırış, təcavüzə, müharibəyə nifrətin ifadəsidir.

Xalqımızın, ordumuzun 44 günlük döyüşlərdə, 23 saatlıq anti - terror tədbirlərində qazandıqları qələbələrdə bu çağırışların - düşmənə nifrət hissinin alovlanmasının, oğul və qızlarımızın mübarizliyinin, şəhidlərimizin ölməzliyinin, haqqımızın tələb edilməsinin böyük əhəmiyyəti olmuşdur. Xocalı həqiqətlərini dərk edənlər, bu soyqırımın dəhşətlərindən agah olanlar xalqımızın haqlı mübarizəsini dəstəkləmişlər, ədalətin qələbəsini alqışlamışlar və səsimizə səs vermişlər. Dünyada ən




geniş yayılan bir vətənpərvərlik hərəkatı kimi “Xocalıya ədalət” kompaniyasının tarixi qələbəmizdə rolu unudulmazdır.

İqlim dəyişiklikləri, dünyada baş verən müharibələr, münaqişələr, təbiətin korlanması, su çatışmamazlıqları bu gün insanları ciddi imtahana çəkmişdir. 800 milyondan çox insanın aclıq çəkdiyini, su çatışmamazlığı, təbiətə qəsd edilməsi sahəsində xəstəliklərin artması bəşəriyyəti daha ciddi düşünməyə vadar edir.

Belə bir dövrdə Heydər Əliyev Fondu öz xeyirxah missiyasını uğurla yerinə yetirməkdədir. Sağlam həyat tərzi formalaşdırmaq, ekoloji sahədə əhatəli tədbirlərə yol açmaq, imkansız ölkələrə yardım əli uzatmaq - məktəblər tikmək, kilsələri təmir etmək, mədəniyyət ocaqlarını yararlı hala salmaq, tibbi ləvazimatlar göndərmək, infrastrukturu inkişaf etdirmək əsas vəzifə kimi qarşıya qoyulmuş və həlli müvəffəqiyyətlə təmin olunmuşdur. Leyla xanım Əliyevanın ekoloji sahədə həyata keçirdiyi tədbirlər - abad həyət, ağac əkmə kompaniyaları öz töhfələrini verir və əkilən milyonlarla ağaclar, abadlaşdırılan həyətlər, parklar, küçələr insanların sağlamlığına, təbiətin saflaşdırılmasına xidmət edir.

Heydər Əliyev Fondu dünyada çox yüksək nüfuza malik olan, humanist məqsədlərə xidmət edən bir təsisat kimi tanınır və qiymətləndirilir.

Bəzi fondlardan fərqli olaraq o bəşəri dəyərlərə söykənir, insanların xoşbəxtliyi, dünyanın gözəlləşdirilməsi, həyatın mənalandırılması, elmin, mədəniyyətin, səhiyyənin inkişafi, sülhün, əminamalığın möhkəmləndirilməsi, qarşıdurmaların qarşısının alınması üçün fəaliyyətini genişləndirir, səylərini artırır, insanları öz ətrafında birləşdirir. Bu gün Heydər Əliyev fondu Ulu Öndərimizin ölməz mənəvi irsinin təbliğ etmək, nəsillərə aşılamaqla yanaşı, onun arzularını, əməllərini yaşadır və sağlığında imkan tapıb yerinə yetirə bilmədiklərini həyata keçirir. Mehriban xanım Əliyeva bir ictimai - siyasi xadım, bir vətəndaş, mətin azərbaycanlı kimi daim xalqın arasındadır. Cənab İlham Əliyevlə döyüş zonalarında, işğaldan azad olunmuş ərazilərimizdə, tikinti meydançalarında, beynəlxalq tədbirlərdə, imkansızların yanında, xəstələrin başının üstündə, gənclərin, qocaların əhatəsindədir. O, insanlarla çox vaxt bir rəhbər kimi yox, bir ana, bir qadın kimi görüşür, hər kəsi səbirlə, qayğı ilə dinləyir və Fond vasitəsilə hər bir kəsə öz köməkliyini göstərir və göstərməkdədir. Ulu Öndərimiz Heydər Əliyev də sağlığında insanlara qarşı çox mehriban və həssas idi. Onun üçün insan, torpaq, Vətən anlayışı müqəddəs idi və bu müqəddəsliyi, ali insani dəyərləri, Vətən, torpaq sevgisini Heydər Əliyev Fondu bu gün yaşatmaqda və ucaltmaqdadır.



***Tahir Rzayev***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Milli maraqlar, beynəlxalq hüquq...

## Azərbaycanın çoxvektorlu xarici siyasətinin əsas istinad mənbəyi...

Yürütdüyü çoxvektorlu xarici siyasət kursu Azərbaycanın bugünki uğurlarının ən mühüm komponentlərindən biridir. Yerləşdiyi geocoğrafi məkan ölkəmiz üçün bir sıra iqtisadi-ticari imkanlar yaratsa da, siyasi nöqteyi-nəzərdən kataklizmlərin davamlı hal aldığı bölgələrdən sayılır. Təsadüfi deyil ki, həm sivilizasiyaların, həm də mədəniyyətlərin qovşağı kimi xarakterizə olunan Cənubi Qafqazın aparıcı aktoru olan Azərbaycan bu gərgin situasiyada özü üçün praqmatik və səmərəli, başqa sözlə milli maraqlarına uyğun aura formalaşdırıb. 30 ilə yaxın işğaldan, təcavüzdən və terrordan, separatizmdən əziyyət çəkən ölkəmiz səbr və təmkinlə, özünəməxsus siyasi-iqtisadi, ən əsası isə strateji inkişaf trayektoriya cızmaqla bu günün real mənzərəsini yaradıb. Böyük güclərin heç bir müdaxiləsinə imkan verməyən, bölgəsəl prosesləri həm regionun, həm də dövlət olaraq özünün siyasi-ictimai maraqlarına uzlaşdıran Azərabycanın uğur formulunun açarı məhz bununla izah edilir - bütün yanaşmalarında ədalət prinsipinin qorunması və beynəlxalq hüquqa istinad edilməsi. Beləliklə, uzun illərdir ki, özünün müstəqil xarici siyasi kursuna sadiqlik nümayiş etdirən məhz bu çərçivədə dünyanın rəğbətini qazanıb, bölgənin siyasi liderinə çevrilib.

### Mövqeyimizi gizlətmirik...

Qeyd edildiyi kimi yerləşdiyimiz bölgə, yaxın coğrafiyamız qarşıdurma və gərginliklərlə “zəngindir”. İstər Mərkəzi Asiyada (Əfqanıstan), istər Yaxın Orta Şərqdə, istər Şimali Qafqazda, istərsə də Mərkəzi Avropada (Ukrayna) baş verənlər bu və ya digər şəkildə regional proseslərə təsirini göstərir. Bölgənin aktiv siyasi-iqtisadi tənzimləyici ölkələrindən biri kimi biz də bu proseslərə bu və ya digər şəkildə münasibətimizi aşılamalıyıq - Azərbaycanın xarici siyasət kursunun xarakterik xüsusiyyətlərindən biri kimi regionda və beynəlxalq səviyyədə əməkdaşlığın və təhlükəsizliyin önə çəkilməsi məhz bu münasibətin əsasını təşkil etməkdədir. Müstəqil siyasət yürütməsi, sivilizasiyalararası dialoqa mühüm töhfələr verməsi, regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasında strateji tərəfdaş qismində əhəmiyyətli rol oynaması Azərbaycanın beynəlxalq nüfuzunu artıran əhəmiyyətli faktor kimi çıxış edir. Azərbaycan öz xarici siyasətini, dövlət siyasətini milli maraqlar, beynəlxalq hüquq müstəvisində tənzimləyir - ölkəmizin xarici siyasət prioritetləri arasında müstəqillik və suverenlik prinsipləri diqqəti cəlb edir. Bu amil bütövlükdə ikitərəfli və çoxtərəfli münasibətlərə anlayışını özündə ehtiva etməkdədir - başqa sözlə, Azərbaycan hətta bölgəsəl problemlərin həllinə münasibətdə belə praqmatik baxışı ilə seçilir. Buna ən real misal iki ildən artıqdır davam edən Rusiya-Ukrayna müharibəsinə qarşı ortaya qoyulan mövqedir - Azərabaycan Ukraynaya humanitar yardım edir, amma tərəflərin heç birinə silah-sursat yardımı edilmir. Bu ilk növbədə münaqişənin bitməsi üçün ortaya qoyulan münasibətdir. İkinci bir tərəfdən, Azərbaycan hər iki dövlətlə bu və ya digər şəkildə mühüm əlaqələrə malikdir və bu kimi məsələlərdə tərəf olmur. ADA Universitetində “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda beynəlxalq forumunda çıxış edən Prezident İlham Əliyev bildirib ki, Ukraynaya münasibətdə bu ölkənin ərazi bütövlüyünə dəstəyimiz dəfələrlə ifadə olunub və bu, bizim mövqeyimizdir, harada danışdığımızdan asılı olmayaraq, bunu gizlətmirik: “Eyni zamanda, Rusiya ilə dostluq və strateji tərəfdaşlıq münasibətlərimiz də bu müharibədən əziyyət çəkməyib və zərər görməməlidir. Bu da bizim milli maraqlarımızı əsas götürən hökumətimizin mövqeyidir”.



### Başqalarının pozmamasını istədiyiniz qaydaları özünüz pozursunuzsa...

Ümumi baxış bucağı yekdil bir münasibəti özündə birləşdirir - beynəlxalq miqyasda əminliklə ifadə olunur ki, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verən Azərbaycanla əməkdaşlıq əhəmiyyətli strateji dividendlər vəd etməkdədir. Təsadüfi deyil ki, dünyanın aparıcı dövlətləri, beynəlxalq statuslu təşkilatları regiona münasibətdə ilk hədəf olaraq Azərbaycanla əməkdaşlığı müəyyənləşdirir. Bunun nəticəsidir ki, özünün müstəqilliyinin cəmisi 30 ili ərəfəsində ölkəmiz BMT TŞ-nin qeyri-daimi üzvü kimi mühüm bir məqama seçildi. Qoşulmama Hərəkatına sədrliyimiz dönəmində qlobal təhlükəsizliyin davamlı hal alması üçün mühüm addımlar atıldı. Bütün bunlar beynəlxalq miqyasda olduqca yüksək dəyərləndirilir. Azərbaycan hazırda mühüm geosiyasi aktor kimi regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Azərbaycan öz xarici siyasətini, dövlət siyasətini dünya dövlətlərinin siyasəti ilə uzlaşdırır, konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən xətt yürüdür. Belə olan halda, Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri beynəlxalq münasibətlər sisteminin aparıcı dövlətləri üçün də strateji əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı və inkişaf mənbəyi adlandırırlar, ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu qəbul edirlər. Ölkəmizin beynəlxalq müstəvidə yeri və rolunu xarakterizə edən ekspertlər, analitik mərkəzlər Azərbaycanın beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi çıxış etdiyini diqqətə çatdırırlar. Ümumiyyətlə, ölkəmiz sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verir - Şərq ilə Qərb arasında münasibətlərin tənzimlənməsində uzlaşdırıcı dayaq mərkəzi kimi çıxış edir. Azərbaycan bütün sferalarda dostluğu, əməkhaşlığı hədəfləyir - sadəcə olaraq bu hədəflər milli maraqlar və beynəlxalq hüquq kontekstinə köklənib. Prezident İlham Əliyev sözügedən forumdakı çıxışında bildirib ki, beynəlxalq hüquq baxımından mükəmməl hesab etmədiyimiz bir şey etmirik. Çünki başqalarının pozmamasını istədiyiniz qaydaları özünüz pozursunuzsa, bu, susuz səhraya aparan yolun, sadəcə, başlanğıcıdır və digər qonşularla da eynidir: “Artıq İsraillə yaxşı münasibətlərimizdən bəhs olundu. Bəli, elədir. Biz bir-birimizi dost hesab edirik. Bu, bizim İran və ya Fələstinlə münasibətlərimizə təsir edən amil olmamalıdır. Mövqeyim tamamilə birmənalıdır. Yenə də beynəlxalq hüquqa əsaslanaraq, biz Fələstin xalqının öz dövlətinə sahib olmaq istəklərini tam dəstəkləyirik. Biz müxtəlif qurumlarda, o cümlədən İslam Əməkdaşlıq təşkilatlarında təşəbbüslərlə çıxış etmişik və ya bir çox hallarda müxtəlif tədbirlərdə iştirak etmişik. Biri digərini istisna etməməlidir. Ədalətli olmalısan, addımlarını, bəyanatlarını beynəlxalq hüquq əsasında qurmalısan. Hər şeyi milli maraqlara uyğun etməli, milli maraqlara zidd heç nə etməməlisiniz. Bölgədə xarici tərəflərin ölkənin şahmat taxtasındakı fiqurları hərəkət etdirməsi və bunun hansı nəticələrə gətirib çıxardığı hallar olub - faciə ilə nəticələnib. Xarici güclərin öz milli maraqları var və onlar mütləq sizin maraqlarınızla üst-üstə düşmür. Əgər üst-üstə düşsə yaxşıdır. Yoxsa biz imtina edirik, biz heç vaxt Azərbaycana potensial təhlükə yarada biləcək heç bir təşəbbüsə qoşulmamışıq və İranla, Rusiya ilə, Gürcüstanla, Avropa ilə, qardaş Türkiyə ilə münasibətlərimizdə həmişə ədalətli olmuşuq. Uğur qazanmağımızın səbəbi də budur”.

***Pərviz SADAYOĞLU***

# Proses davam edir



**28 sərhəd dirəyi quraşdırılıb**

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında nəzərdə tutulan işlərin təxminən 35 faizi 2024-cü il aprelin 26-dək yerinə yetirilib, 28 sərhəd dirəyi quraşdırılıb.

Hər iki dövlətin ekspert qruplarının işi davam edir.

# Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi bağlandı

Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi öz vəzifə və tapşırıqlarının öhdəsindən layiqincə gəlib.

Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin bağlanış mərasimində çıxışı zamanı deyib ki, 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin növbəti təxribatının qarşısını alaraq əks-həmlə əməliyyatı keçirdi: “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı Prezident İlham Əliyevin rəhbərliyi altında aparılmış 44 günlük Vətən müharibəsi Azərbaycan Respublikasının tam Qələbəsi və ərazi bütövlüyünün təmin edilməsi ilə başa çatdı. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin imzaladığı 10 noyabr 2020-ci il tarixli Bəyanata əsasən, atəşkəs rejiminə nail olundu və 30 ilə yaxın davam edən münaqişəyə son qoyuldu. Türkiyə Respublikası və Rusiya Federasiyası arasında 2020-ci il noyabrın 11-də imzalanmış memoranduma əsasən yaradılmış Birgə Monitorinq Mərkəzi üç ildən artıq müddət ərzində sülhün təmin olunmasına öz töhfəsini verdi. Birgə fəaliyyət nəticəsində Mərkəz öz vəzifə və tapşırıqlarının öhdəsindən layiqincə gəldi”.




K.Vəliyev bildirib ki, Birgə Monitorinq Mərkəzi Qarabağ iqtisadi rayonu ərazisində sülhün və sabitliyin təmin olunması üçün səylərini əsirgəməyib. “Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonu üzərində tam nəzarətinin bərqərar olunması məqsədilə ötən il sentyabrda keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı birləşmələri ölkə ərazisindən tamamilə çıxarıldı. Bu səbəbdən Birgə Monitorinq Mərkəzinin tapşırıqları başa çatmış hesab edilir. Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyasının sülhməramlı kontingentinin də ölkə ərazisindən tam çıxarılması prosesinə başlanılıb. Regionda sülhün və sabitliyin rifahı naminə vicdanlı və cəsarətli xidmətlərinə görə Türkiyə və Rusiya hərbi qulluqçularına xüsusi təşəkkürümü bildirir və onlara gələcək xidməti döyüş fəaliyyətlərində uğurlar arzulayıram”, - deyə K.Vəliyev bildirib.

# Vətənpərvərlik tərbiyəsinin mənbəyi ailədir...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti üzrə hazırlanmışdır**

Gənc nəslin milli şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi müasir dünyanın vacib elementlərindən hesab olunur. Gənclərin vətənpərvərliyi emosiya və hisslərlə bağlı olduğundan bu hisslərin tərbiyəsi hər bir dövlət və cəmiyyət üçün vacib məsələyə çevrilir. Gənclər bizim gələcəyimizdir. Zaman-zaman ən mötəbər kürsülərdən səslənən və nəsillərin bir-birini əvəz etməsi fonunda gəncliyə böyük ümidləri ifadə edən bu şüar həmişə aktual olub. Çünki bəşəriyyətin sadə yaşam məntiqi belədir. Bu gün həyatın bütün sahələrində quruculuq işlərinin sükanı arxasında olan orta və yaşlı nəsli sabah gənclər əvəz edəcək. Ölkənin qurucuları, sahibləri onlar olacaqlar. Bu mənada gəncləri sabahkı həyata, atababalarının işlərini layaqətlə davam etdirməyə, dövlətin, xalqın onlara bəslədikləri ümidləri doğrultmağa hazırlamaq bütün dövrlərdə xalqların əsas qayğısından biri olub.

İnsan özünü və dünyanı əsasən gənclik yaşlarından dərk edir. Onda doğma Vətən, mənsub olduğu xalq qarşısında borc, məsuliyyət hissləri də məhz gənc yaşdan təşəkkül tapır. Ona görə də hər bir ölkənin, xalqın gələcəyinin necə olması bugünkü gəncliyin hansı ideallarla yaşamasından, övladı olduğu Vətəni, xalqı qarşısında borc, məsuliyyət hissini necə dərk etməsindən, vətənini, xalqını nə dərəcədə sevməsindən asılıdır. Gələcəyimizi xoşbəxt, əmin-amanda görmək istəyiriksə, sadalanan cəhətlərin bugünkü gənclikdə olmasına çalışmalıyıq. Bu çalışmanın mərkəzində isə gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi durur. Ona görə də gənclərin vətənpərvərlik tərbiyəsi, onlara Vətənə, xalqa məhəbbət hisslərinin aşılanması həmişə olduğu kimi bu gün də aktualdır.

**Gənclərə daim hərbi məzmunlu biliklər verilməlidir**

Mövzunu "Yeni Azərbaycan"a şərh edən təhsil eksperti Elçin Əfəndi bildirib ki, Respublikamızın ümumtəhsil orta ixtisas və ali məktəblərində tədris olunan təbiət və cəmiyyət elmlərinin, humanitar fənlərin, ümumilikdə, bütün fənlərin gənclərdə hərbi-vətənpərvərlik hissləri aşılamaq üçün çox böyük imkanları var: "Gənclərdə hərbi-vətənpərvərlik tərbiyəsini o zaman daha yaxşı aşılamaq mümkündür ki, orta məktəbin 10-11-ci siniflərində oxuyan şagirdlərə və ali məktəbdə təhsil alan tələbə-gənclərə ayrı-ayrı fənləri və ixtisas kurslarını tədris edərkən daim hərbi məzmunlu biliklər də verilsin. Keçmiş Sovetlər birliyi dövründə mövcud dərsliklərdə, dərs vəsaitlərində və metodik ədəbiyyatda hərbi vətənpərvərlik hissləri aşılayan məlumatlar və hərbi məzmunlu biliklər məxfilik üzündən verilmirdi. Əslində bu, şüurlu surətdə edilirdi ki, gənclər vətənpərvərlik duyğularından məhrum olsunlar, Vətənin müdafiəsi üçün lazımi bilikləri almasınlar. Artıq bu gün müstəqil Respublikamızın inkişafı ilk növbədə böyüyən nəslin təlim-tərbiyə işinin düzgün təşkilindən, vətəndaşlıq hazırlığından asılıdır. Gənclərin bir vətəndaş kimi böyüməsində ailənin, cəmiyyətin-ümumilikdə mühitin rolu böyükdür. Gənclər bir insan kimi, vətəndaş kimi ilk tərbiyəni ailədən alır. Beləliklə onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır. Tərbiyənin əsas məqsədi kamil şəxsiyyət-insan-vətəndaş yetişdirməkdir. Vətəndaş tərbiyə etmək-mənsub olduğu dövlətin inkişafına çalışan, mənafeyini gözləyən, onun təhlükəsizliyi üçün məsuliyyət daşıyan, dövlətin cari və perspektiv işlərində iştirak edən, insan yetişdirmək deməkdir".



## Nələrə diqqət edilməlidir?

**Vətənpərvərlik tərbiyəsi planlı təşkil olunmalıdır**

Ekspertin sözlərinə görə, vətənpərvərlik tərbiyəsinin mənbəyi ailədir: "Təcrübə göstərir ki, ailədə vətənpərvərlik tərbiyəsi yalnız özbaşına, kor-koranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Gənclərin vətənpərvərlik tərbiyəsi dedikdə, yüksək əxlaqi, mənəvi keyfiyyətlərə yiyələnmə və şəxsiyyət kimi yetişmə nəzərdə tutulur. Onlar davranış qaydalarını, nizam-intizamı, savadlı olmağı, Vətəninin tarixini, coğrafiyasını, mədəniyyətini, milli adət- ənənələrini bilməli, Vətəni sevməlidirlər. Gənclər ideyaca savadlı olmalı, işə şüurlu yanaşmalı, məsuliyyətli, vicdanlı, mübariz olmalıdır.

**Ölkəmizdəki gənclər şanslıdır...**

E.Əfəndi qeyd edib ki, Respublikamızda hüquqi, demokratik dövlət quruculuğu inkişaf etdikcə vətənpərvərlik tərbiyəsinə, o cümlədən böyüməkdə olan nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir: "Böyük Atatürk deyirdi ki, sülh istəyən xalq hərbə hazır olmalıdır. Bu, çox dəyərli kəlamdır. Azərbaycan xalqı müharibəni arzulamır, həmişə sülhün, əmin-amanlığın tərəfdarıdır. Hərbi vətənpərvərlik tərbiyəsini sadəcə olaraq quru sözlərlə, nəsihətlərlə də məhdudlaşdırmaq olmaz. Məsələn, Bəxtiyar Vahabzadənin "Bayraq" şeirində vətəndaşlıq qüruru aşılamaq üçün çox ibrətamiz fikir səslənir: "Bayraq mənliyimdir, bayraq kimliyim! Bayraq öz yurduma öz hakimliyim!". Bu fikri belə izah etmək olar: Bəli müstəqil yurdu, dövləti olan xalqın bayrağı olur! Xalqımızın üçrəngli, ayulduzlu bayrağı onun müstəqilliyinin rəmzi kimi tərənnüm olunur!. Ona görə də ölkəmizdə böyüməkdə olan gənc nəsl olduqca şanslıdır. Sadaladığımız məqamların hər biri isə gənclərimizdə vətəndaşlıq, vətənpərvərlik duyğularını formalaşdırmaq üçün zəruri vasitələrdir".

**Y.SAHİB**

# Təkliyinə çarmıxlanmış nəsil

## Qabriel Qarsia Markesin "Yüz ilin tənhalığı" romanı haqqında

əvvəli ötən sayımızda

**Vilayət Hacıyevin rəyi**

"Əlbəttə, tərcümələr hamısı rus dilindən olunduğu üçün, demək olar ki, ifadə edilən məna eynidir. Sadəcə olaraq, ifadə vasitələrində müxtəliflik var. Bəzilərində o, orijinaldakından bir qədər qüvvətli, bəzilərində isə zəif səslənir. Məsələn, "mir bıl eke takim novım..." cümləsi birinci, dördüncü tərcümələrdə "bakirəydi" kimi verilir ki, bu da, zənnimcə, yaxşı səslənsə də, orijinalın fikir yükünü vermir, "təzəydi", "təzə idi", "təzə-tər idi" (tərcümə: 2, 3, 5, 7) hərfi tərcümə təsiri bağışlayır. Əslində, dünyanın həmin vaxtlar heç də "təzə" olmadığını, yalnız onlar üçün təzə açıldığını nəzərə alsaq, altıncı və səkkizinci tərcümələrin cümlələrin əvvəlinə "sanki" və ya "elə bil" artırmaqla məqbul tərcümə hesab etmək olar. Bəlkə də belə daha yaxşı səslənərdi: "Sanki dünya yenicə bina olunmuşdu..." Axı onda dünya çoxdan bərqərar idi və hər şeyin də adı vardı, sadəcə olaraq, onlara məlum deyildi.

Orijinaldan ikinci cümləni tərcümə etmək üçün bircə anlığa iri ağ daşların arasından qıjıltı ilə axan, həmin daşları yuya-yuya sanki cilalayan dağ çayını təsəvvür eləmək lazımdır. Əgər biz ruscadakı "loja" və "otpolirovannıy" sözlərini işlədiyi kimi saxlamağa çalışsaq, tərcümə alınmayacaq. Çünki Azərbaycan dilində "çay öz yatağı ilə axır" demirlər. "Çay öz yatağından çıxdı" isə demək mümkündür. "Oqromnıx, kak doistoriçeskie əyüa"-nın tərcüməsində "Nuh əyyamının yumurtaları" (tərcümə 1), "Əfsanəvi əjdaha yumurtaları" (tərcümə 2), "tarixdən öncəki əfsanəvi nəhəng yumurtalar" (tərcümə 3), "qədim kələz yumurtaları" (tərcümə 5), "dinozavr yumurtaları" (tərcümə 6), "əjdaha yumurtası" (tərcümə 8) verilməsi də, zənnimcə, məqbul tərcümə hesab oluna bilməz. Belə olan halda, dördüncü tərcümədəki "bəni-insandan da əvvəllərin nəhəng yumurtaları"nı orijinalın fikir yükünü ifadə edən bilən uğurlu tərcümə saymaq olar.

Bütövlükdə götürəndə, "bakirə"ni, bir də "yataq" sözlərini çıxmaq şərtilə, söz seçimi, fikrin ifadə tərzi baxımından dördüncü tərcümə məqbul hesab oluna bilər, ancaq burada da, məncə, təhkiyənin forması düzgün seçilməyib. "Uzun illər keçəcək və..." ilə başlayan tərcümə mətnlərinin təhkiyə tərzi və bununla yaranan ritmi təkcə orijinala yaxın olmaqla kifayətlənmir, həm də mətnin rəvan oxunmasını təmin edir.

Daha bir məsələni vurğulamaq istərdik: Azərbaycan dilində "gildən tikilmiş ev" ifadəsi işlənmir və burada uzaqbaşı "sarı palçıqdan tikilmiş ev" deməklə orijinalın fikir yükü azalmazdı. Əslində, ispanca "barro" sözünün birinci mənası "palçıq", ikinci mənası "gil"dir. Yeddinci tərcümənin müəllifi, görünür, hansı duyumlasa haqlı olaraq "palçıq və bambukdan tikilmiş" yazıb.

Əlbəttə, bütün bunlar mənim subyektiv fikrimdir. Onu da deyim ki, mənə təqdim olunmuş hər tərcümənin özünə görə bir uğuru var".

***

Bunları xatırlatmaqla mən həm Markes cümlələrinin dildən-dilə köçəndə necə bərq vurduğunu, neçə-neçə çalar qazandığını, həm də bədii tərcümə sənətinin nə qədər qəliz, mürəkkəb bir iş olduğunu bir daha nəzərə çatdırmaq istədim. Əlbəttə, neçə ki orijinaldan olunmayıb, heç bir tərcümə mükəmməl sayıla bilməz. Bununla belə ispan dilindən Azərbaycan dilinə birbaşa körpü salınacağını oturub gözləmək də olmaz. Məsələn, Əkrəm Əylislinin ruscadan çevirdiyi "Gözlənilən bir qətlin tarixçəsi", yaxud İshaq İbrahimovun eyni dildən çevrilmiş "Polkovnikə məktub yoxdur" povestinin tərcüməsi gözəldir, hərçənd axtaran olsa, bu tərcümələrdə nöqsanlar da tapılar, ancaq o çatışmazlıqlar əsərin məzmununu, üslubunu qavramağa əngəl törədəcək səviyyədə deyil.

Markes özü deyirdi ki, Dostoyevskinin ən pis tərcümədə belə oxuya bilib. Onun əsərlərinin də hətta qüsurlu tərcümədə ruhunu duymaq mümkündür. Ümumiyyətlə, bədii tərcümə məsələsi bizim yaralı yerimizdir. Müstəqilliyimizin bərpasından bir qərinə ötsə də, bir çox dünya dilindən (hələ dünya dilinə demirəm) peşəkar tərcüməçi kadrlar yetişdirə bilməmişik, halbuki qonşu gürcülər bu məsələni sovet hakimiyyətinin gənc vaxtlarından həll eləyiblər.

***

"Yüz ilin tənhalığı"na qədər Markesin imzası elə də tanınmırdı. Nobel mükafatı laureatı, həm də kolumbiyalı dostunun, həmkarının tədqiqatçısı Varqas Lyosanın da dediyi kimi, o illərdə Latın Amerikası yazıçılarının əsərləri kiçik tirajla nəşr olunurmuş, onu da, eynən indi bizdə necədirsə eləcə, dost-tanışa paylayırmışlar. Lyosa yazır ki, Markesin "Polkovnikə məktub yoxdur" povestiylə ilk dəfə Parisdə, o da fransızcaya tərcümədə tanış olub. Halbuki həmin dövrdə Markesin qırx yaşının tamam olmasına çox qalmamışdı.

"Yüz ilin tənhalığı" romanı həm öz müəllifinin, həm də bütövlükdə Latın Amerikası ədəbiyyatının xilaskarı kimi meydana gəldi. Ondan sonra qitənin ispandilli oxucularının öz milli ədəbiyyatlarına hörməti birə-min artdı, bütün dünyanın diqqəti Latın Amerikasına yönəldi. Markes doğulub boya-başa çatdığı qitənin təbiətini, xarakterini, insanlarını necə bir möcüzəli, sehirli qiyafədə təqdim elədisə, bütün dünya oxucularının üzünə təmam yeni, əfsanəvi bir diyarın qapılarını açdı. Əlbəttə, bu işdə Latın Amerikası ədəbiyyatının qalan nəhənglərinin (Borxes, Neruda, Kortasar, Kasares, Rulfo, Kastaneda, Fuentes, Asturias, Karpentyer, Onetti, Silva, Amadu, Lyosa, Koelyo...) əvəzsiz xidmətini danmaq olmaz, ancaq onların heç biri yer üzünə Markes qədər ün salmayıb.

***

Dünya şöhrətli romanı işıq üzü görəndə Markesin qırx yaşı vardı. Müəllif şah əsərinə doğru ta gəncliyindən yol gəlirdi, ancaq romanın yazılması yalnız beşinci cəhddə baş tutdu. Əlbəttə, belə bir əsəri qələmə almaq üçün zəngin təcrübə, mükəmməl hazırlıq tələb olunurdu. Markes də qırx yaşının astanasında romanı yazmağa artıq hazır olduğunu hiss eləyib hücrəsinə çəkildi. O, əsəri altı aya tamamlayacağını düşünürdü, ancaq proses üç dəfə uzandı il yarımacan çəkdi. Bu müddətdə həyat yoldaşı Mersedes ev kirayəsini ödəyə bilmədi, qəssaba, dükançılara borclu qaldı, ancaq hamını inandırdı ki, Qabo yeni kitabını tamamlayandan sonra hər şey yaxşı olacaq. Onun dahi ərinə bir rahibə kimi itaət göstərməsi, ona sorğu-sualsız inanması, hətta deyərdim, iman gətirməsi sözün yaxşı mənasında heyrət doğurur.

Axırda iş o yerə çatdı ki, evdə satılası bir şey qalmadı, kitabı poçtla Buenos-Ayresdəki naşirə göndərmək üçün Mersedesin mikserini, fenini girov qoydular. Naşir kitabı səkkiz min tirajla buraxmaq istədiyini deyəndə müəllif həyəcanla ona xəbərdarlıq elədi ki, ehtiyatlı olsun, indiyəcən onun kitabları ən çoxu min iki yüz tirajla çıxıb. Müəllifin xəbərdarlığına baxmayaraq naşir romanı dediyi sayda buraxdı, bu nüsxələr cəmi üç-dörd günə satılıb qurtardı. Ondan sonra roman hər ay on min tirajla yenidən çap olundu, üstəlik, bu proses illərlə sürdü. Ardınca da "Yüz ilin tənhalığı"nın dünya turuna start verildi.

***

Markesin əsəri ailə romanı qəlibində yazılsa da, Tomas Mannın "Buddenbroklar", Qolsuorsinin "Forsaytlar dastanı", Marten dü Qarın "Tibo ailəsi", Qorkinin "Artamonovların işi" romanlarından fərqli olaraq sosial-epoxal xarakter daşımır, hərçənd əsərdə Latın Amerikası xalqlarının ictimai-siyasi bəlalarının da, konkret desək, Şimali Amerikaya məxsus banan şirkətlərinin əhalinin başına gətirdiyi faciələrin, vətəndaş qırğınlarının, inqilabi çaxnaşmaların da üstündən keçilmir. Əslində, "Yüz ilin tənhalığı" real həyatdan ayağı üzülməmiş fəlsəfi pritçadır, başqa sözlə, bu əsər xəyalla gerçəkliyin, reallıqla fantastikanın qovuşağında yazılıb.

Əsərdəki hadisələrin konkret məkanı, xarakterlərin konkret dini-milli kimliyi olsa da, müəllif bu konkretliklərin problemlərini çözməklə kifayətlənmir; yəni Makondo yalnız Kolumbiyanın, Latın Amerikasının yox, bütün dünyanın, Buendia ailəsi də cəmi bəşərin obrazıdır. Markes gerçəkliklə fantaziya arasındakı sərhədi elə ustalıqla silir ki, oxucunun onun uydurmalarına inanmaqdan başqa çarəsi qalmır. Bu səbəbdən onun metoduna magik realizm, yaxud da fantastik gerçəklik adı verilib. Burada bütün hadisələr bir evdə (təsadüfi deyil ki, müəllif əvvəlcə romana "Ev" adı verməyi düşünürmüş), bir kənddə, bir qəsəbədə, nəhayət, sivilizasiya ilə möhkəm bağlantı yaratmış kiçik şəhərdə baş verir, ancaq bu evə, bu şəhərə gəlib-gedən adamların vasitəsilə yaxın-uzaq aləmlərin sədası da eşidilir.



**F.Uğurlu**

davamı növbəti sayımızda

# Rediküllərin yeni "hədəfi"

Ölkəmizdəki sayları barmaqla sayılacaq qədər az olan redikül müxalifət düşərgəsinin təmsilçilərinin səsləndirdikləri fikirlər, sərgilədikləri əməllər bir qayda olaraq milli maraqlarımızla üst-üstə düşmür, cəmiyyətin sosial sifarişlərini iqnor edir. Nə vaxt ki, Azərbaycan daxili və xarici siyasətdə uğurlara imza atır, rediküllər sanki qəm dəryasına batırlar, bir-birlərinə qoşularaq respublikamızın beynəlxalq nüfuzuna, ölkədaxili sabitliyə, həmrəyliyimizə hansı yollarlasa xələl gətirməyə hesablanan absurd fikirlər səsləndirirlər və bununla da insanlara mənfi enerji yükləməyə çalışırlar.

Nüfuzlu reytinq agentlikləri təqdim etdikləri hesabatlarında Azərbaycanın dünya ölkələrinin sıralamasında müxtəlif parametrlər üzrə mövqelərini yaxşılaşdırdığına xüsusi vurğu edirlər. Bu da ölkəmizin beynəlxalq nüfuzunun artmasına öz müsbət təsirini göstərir. Son illərdə dünya ictimaiyyəti respublikamıza artan inamın və rəğbətin ifadəsi olaraq müxtəlif beynəlxalq tədbirlərə ev sahibliyi hüququnu Azərbaycana verib. Belə ciddi qərarlar verilərkən, təbii ki, respublikamızın reallıqları, o cümlədən inkişaf dinamikası, sabitlik, şəffaflıq, multikultural mühit göstəriciləri əsas götürülür. Bu sırada biz "Eurovision -2012" mahnı müsabiqəsinin, Birinci Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, "Formula - 1" yarışlarının təşkil olunması üçün ev sahibliyi hüququnun Azərbaycana verilməsini misal göstərə bilərik. Respublikamız isə öz növbəsində beynəlxalq birliyin etimadını böyük məsuliyyət kimi qəbul edir. Belə tədbirlərin keçirilməsində Azərbaycan özünün yüksək standartlarını müəyyənləşdirir. Təsadüfi deyildir ki, ayrı-ayrı beynəlxalq təşkilatlar Azərbaycanın nümunəvi ölkə olduğunu bildirir və Bakıda müəyyənləşdirilən standartları etalon kimi qəbul edirlər.

Belə tədbirlər bir qayda olaraq transmilli mediada geniş işıqlandırılır. Dünyanın nəzərlərinin ölkəmizə dikilməsi son dərəcə qürurvericidir və bunun yaratdığı sevinc hissini təsəvvür etmək çətin deyil. Ağla sığmayan yeganə məqam isə azərbaycanlı soyadını daşıyan AXCP sədri Əli Kərimlinin və onun başına yığdığı dəstənin təmsilçilərinin uğurlarımıza sevinməmələridir. Görəsən, ümummilli səviyyədə uğurlara imza atdığımız zaman əli kərimliləri, gültəkin hacıbəyliləri, cəmil həsənliləri, qənimət zahidləri və rediküllər yığnağında təmsil olunan digərlərini qəmqüssəyə batıran nədir? Onların dünya miqyaslı tədbirlər ərəfəsində respublikamızda qarışıqlıq yaratmaq, sabitliyi pozmaq cəhdləri yaddaşlarda acı xatirələr kimi qalıb. Biz həm də onu yada salırıq ki, qeyd olunan hadisələr zamanı ermənilər və xaricdəki Azərbaycanafob dairələr də fəallaşmışdılar. Eyni qarayaxmaların, cəfəng iddiaların həm Avropadakı bəlli mərkəzlərdə, həm də redikül müxalifət düşərgəsində sixron şəkildə səslənməsi o qənaəti yaradırdı ki, bu hərəkətlənmələr vahid bir ssenari ilə idarə olunur. Sonradan aşkarlanan faktlar "Beşinci kolon" təmsilçilərinin maskasını cırdı. Bununla da bəlli oldu ki, redikküllər Avropa dairələrindən aldıqları anti-Azərbaycan tezislərini özlərinin əsas fəaliyyət istiqamətləri qismində qəbul edirlər.



Hazırda isə istər ölkə daxilindəki rediküllər, istərsə də xaricdə məskunlaşmış antimilli ünsürlər Azərbaycanın COP29-a ev sahibliyi etməsini hədəf seçiblər. Onlar ölkəmizə qarşı növbəti "qara piar" kampaniyasına start veriblər. COP29 BMT-nin çox mühüm tədbirlərindən biridir. Burada keskin iqlim dəyişmələri fonunda yarana qlobal çağırışlar müzakirə olunacaq. Respublikamıza dünyanın dörd bir tərəfindən on minlərlə qonağın gəlməsi gözlənilir. Ölkəmiz belə bir mötəbər beynəlxalq tədbirə ev sahibliyi hüququnu Şərqi Avropa qrupunun namizədi qismində əldə edib. Qərar verilərkən ölkəmizin müsbət reallıqları, enerji transformasiyası istiqamətindəki fəaliyyətləri, 2050-ci ilədək olan dövr üçün müəyyənləşdirdiyi "sıfır emissiya" hədəfi və digər mühüm amillər əsas götürülüb. Hazırda respublikamızın müvafiq qurumları çox ciddi hazırlıqlar həyata keçirirlər. Belə bir məsuliyyətli dönəmdə rediküllərin məsuliyyətsizcəsinə "COP29-dan əvvəl siyasi mühitin ekologiyası təmizlənməlidir" kimi mücərrəd və heç bir məntiqi əsası olmayan iddialar səsləndirmələri ancaq düşmənlərimizin dəyirmanına su tökmək anlamında qəbul edilə bilər. O nəticə hasil olur ki, rediküllər bunu da özlərinə rəva görürlər...

**MÜBARİZ**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# Əməyin Mühafizəsi Günü...

## Hər il istehsalatda 339 milyon bədbəxt hadisə baş verir

*Yeganə BAYRAMOVA*

İnsan amilinin uca tutulduğu ölkələrdə inkişafın labüdlüyü çoxdan təsdiqlənib. Müasir dünya təcrübəsindən də bəllidir ki, inkişaf etmiş bütün ölkələrdə vətəndaşların işçi olaraq hüquqlarının qorunması mühüm amillərdən sayılır. İnsanların əməyinin mühafizəsi, onların sağlam və təhlükəsiz iş şəraitində işləməsi hər bir dövlətin sosial siyasətinin prioriteti hesab olunur.

**Əməyin mühafizəsi nədir?**

Əməyin mühafizəsi dedikdə istehsal prosesində işçilərin təhlükəsizliyini təmin edən iqtisadi, təşkilati, texniki və hüquqi tədbirlərin məcmusu başa düşülür. Müasir dövrdə insanların əmək fəaliyyəti ən mürəkkəb istehsal alət və vasitələrdən istifadə ilə əlaqədardır. Bu zaman bədbəxt hadisələrə və digər ağır nəticələrə yol verməmək üçün işçilər təhlükəsizlik texnikası ilə tanış edilməli, müasir şəraitinə uyğun əmək təhlükəsizliyi qaydaları yaradılmalı, əməyin mühafizəsi üzrə münasibətləri nizama salan yeni normalar işlənib hazırlanmalıdır. İstehsalatda əməyin mühafizəsi müəssisə rəhbərinə və digər vəzifəli şəxslərə həvalə olunur. Onlar baş verən bütün pozuntulara görə məsuliyyət daşıyırlar.

**Dünyanın 100-dən çox ölkəsində...**

Yeri gəlmişkən, aprelin 28-i Ümumdünya Əməyin Mühafizəsi Günüdür. Beynəlxalq Əmək Təşkilatının (BƏT) təşəbbüsü ilə 2003-cü ildən elan olunan bu gün hazırda dünyanın yüzdən çox ölkəsində qeyd edilir. Ümumdünya Əməyin Mühafizəsi Gününün təsis olunmasında məqsəd cəmiyyətin diqqətini işçilərin sağlam və təhlükəsiz əmək şəraiti ilə təmin olunması, istehsalat qəzalarının qarşısının alınması üçün profilaktik tədbirlərin görülməsi məsələlərinə cəlb etməkdir.

**Dünyada hər il 2.34 milyon insan...**

BƏT-in məlumatına görə, hər il dünyada istehsalat sahəsində 339 milyon bədbəxt hadisə baş verir. Dünyada hər il istehsalatla əlaqəli bədbəxt hadisələr, peşə xəstəlikləri nəticəsində isə təxminən 2,34 milyon nəfər həlak olur. Bu, hər gün orta hesabla 6 min insan deməkdir. Hər il 160 milyondan çox insan müxtəlif dərəcəli bədən xəsarəti alır və ya peşə xəstəliklərinə tutulur. İstehsalat qəzaları nəticəsində dünya üzrə ümumi daxili məhsulun 4 faizinin və ya 2,8 trln. ABŞ dollarının itirilməsi ilə nəticələnir.

Bütün bunlar dünyada əməyin mühafizəsini aktuallaşdıran problemlər kimi çıxış edir. BƏT-in qəbul etdiyi və dövlətlərin qoşulduğu konvensiyaların böyük əksəriyyəti məhz əməyin təhlükəsizliyi, layiqli əməyin təmin olunması məsələlərini əhatə edir.

Əməyin mühafizəsi ölkəmizdə də sosial siyasətin əsas məqsədlərindən biridir. Azərbaycan 1992-ci ildən bəri üzvü olduğu BƏT-in bu sahədə olan bütün konvensiyalarına qoşulub. Daha dəqiq ifadə etsək, ölkəmiz tərəfindən BƏT-in əsas işçi hüquqları ilə bağlı 58 konvensiyası, o cümlədən əməyin mühafizəsi və təhlükəsizliyinə dair 21 konvensiyası ratifikasiya olunub. 2004-cü ildən etibarən isə Azərbaycanda Ümumdünya Əməyin Mühafizəsi Günü qeyd olunur.

# Ruhun qidası...

## Beynəlxalq Rəqs Günüdür

*Yeganə BAYRAMOVA*

İnsanların öz hisslərini və düşüncələrini ifadə edən vasitələrdən biri rəqslərdir. Rəqslər, eyni zamanda, musiqinin müşayiəti altında bədən hərəkətlərindən ibarət unikal dil hesab olunur. Dünyanın demək olar ki, bütün xalqlarında maraqlı rəqs nümunələri var. Bu rəqslər öz fərqlilikləri və ifa çətinlikləri ilə insaları heyrətə gətirə bilər.

Qədim dövrlərdə rəqs hərəkətləri olduqca sadə olub. İnsanlar müəyyən bir ritm altında əl və ayaqlarını sərbəst şəkildə hərəkət etdirərək rəqs edirdilər. Rəqslər hər zaman müxtəlif mərasimlərin, bayramların mühüm hissəsini təşkil edib. Bu gün bizə məlum olmayan bir sıra qədim rəqslər var ki, onlar maraqlı tarixçələri ilə seçilir.



**Ölülərlə rəqs**

Madaqaskar əhalisinin çox qəribə və qədim adəti var. Yerli əhali hər yeddi ildən bir xüsusi mərasim keçirir. Ada sakinləri öz yaxınlarının məzarlarını açıb cəsədləri çıxarırlar. Daha sonra cəsədin köhnə kəfəni yenisi ilə əvəz edilir. Ölülərin qalıqları təkrar dəfn edilməzdən əvvəl heyvan ətlərindən hazırlanmış süfrə açılır. Əhali süfrə arxasında cəsədləri çiyinlərinə alaraq musiqi sədaları altında rəqs edirlər.

**Müqəddəs Vitta rəqsi**

Almaniyada XIV-XV əsrlərin ortasında bu rəqs olduqca məşhur imiş. Bu rəqsi hətta “kütləvi dəliliyin” erkən təsvir edilmiş formalarından biri kimi qiymətləndirirlər. Yüzlərlə insan bütün gün ərzində qeyri-ixtiyari yorulana qədər rəqs edir. Bu rəqs həftə ərzində dayanmadan davam edir. İlk dəfə bu rəqs 1374-cü ildə Aexen şəhərində qeydə alındıqdan sonra bütün Avropada yayılıb.

**Vendiqo rəqsi**

Hindlilərin ənənəvi rəqsidir. İnsanlar rəqs vasitəsilə çürümüş parçalardan ibarət geyim, qəribə saç düzümü ilə adamyeyən bədheybətləri təsvir edir. Rəqs edənlər ovçu bədheybətlərin dəlisov hərəkətlərini təqlid edir.

**Tarantella**

İtaliyanın Neapol şəhərində XV əsrdə yaranmış rəqsdir. Rəqsin adı haqqında iki maraqlı versiya var. Belə ki, bir qrup insanlar rəqsin adının Taranto şəhəri ilə bağlı olduğunu düşünür. Digərləri isə bu yerlərdə tez-tez rast gəlinən nəhəng hörümçəklə əlaqələndirir. İnsanlar hesab edirdilər ki, bu hörümçəklər zəhərlidir. Hörümçək dişləməsindən yaranan ölümcül xəstəliklərdən qurtulmaq üçün insanlar sadəcə çoşqun və sürətli rəqslər etməyə başlayıb. Yalnız 300 il sonra məlum olub ki, hörümçəklər heç zəhərli deyilmiş.

**Morrisa rəqsi**

Bu, qədim ingilis rəqsidir. Morissa keçmişdə bütpərəstlər tərəfindən yaradılıb. Bir qrup tədqiqatçılar isə bu rəqsin daha qədimdən mövcud olduğunu iddia edirlər. XVI əsrdə Avropa küçələrində maraqlı kostyumlar və zınqırovlarla oynanılan rəqslər olduqca məşhur imiş. Böyük Britaniyada bu maraqlı rəqs hələ də xüsusi yer tutmaqdadır.

**Kandoble ayin rəqsi**

Braziliyada XX əsrin ortalarına qədər qadağan edilən bu qəribə və sirli dini rəqs Afrikadan bura qulların köç etməsindən sonra yenidən canlanmağa başladı. Rəqsin əsas məğzini dini mərasimlərdə monoton hərəkətlərin təkrarı təşkil edir. Rəqqasların Allahla ünsiyyətdə olduğu güman edilir. Baraban sədaları altında gerçəkləşdirilən rəqslərdə insanların ruhunu təmizlədiyi güman olunur.

Qeyd edək ki, aprelin 29-u Beynəlxalq Rəqs Günü kimi qeyd olunur. Bu gün 1982-ci ildə UNESCO-nun Beynəlxalq Rəqs Şurası tərəfindən tanınmış fransız baletmeysteri, müasir dünya baletinin nəzəriyyəçisi sayılan Jan-Jorje Noverin xatirəsinə ehtiram olaraq təsis edilib.

# “GSMA M360 Eurasia 2024” konfransında ən son rəqəmsal tendensiyalar müzakirə ediləcək

Azercell

## *“Azercell”in ev sahibliyi etdiyi “M360 Eurasia 2024” tədbirinə qeydiyyat davam edir*

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin dəstəyi və “Azercell Telekom” MMC-nin baş sponsorluğu ilə 15-16 may tarixlərində Bakıda keçiriləcək “GSMA M360 Eurasia 2024” konfransında rəqəmsal dövrün ən aktual tendensiyaları ətrafında fikir mübadiləsi aparılacaq.

Tədbir rəqəmsal transformasiyanın gücü, süni intellektin müxtəlif sahələrə təsiri, həmçinin “yaşıl texnologiyalar” kimi mühüm mövzuların müzakirəsi üçün əla platforma rolunu oynayacaq. Konfransa qatılan beynəlxalq və regional ekspertlər, şirkət rəhbərləri və region üzrə tənzimləyici qurumların nümayəndələri bu proseslərin sürətləndirilməsi üçün bazar iştirakçılarının birgə fəaliyyətinin əhəmiyyətini bir daha vurğulayacaqlar.

“M360 Eurasia 2024” çərçivəsində süni intellektin rəqəmsal dünyanın bütün sahələrində geniş tətbiqi, onun innovasiya üçün açdığı yeni perspektivlər barədə danışılacaq. Eyni zamanda, bu texnologiyanın məlumat məxfiliyi və təhlükəsizliyin təmin edilməsi kimi istiqamətlərdə yaratdığı çağırışlar da müzakirə olunacaq. Bu keçidin həm biznes, həm də cəmiyyət üçün ən faydalı şəkildə reallaşdırılması yolları ətrafında fikir mübadiləsi aparılacaq.

Tədbirdə Rəqəmsal DNT (Digital DNA) mövzusu çərçivəsində yeni dövrdə uğur əldə etmək üçün lazımlı bacarıq və qabiliyyətlər, rəqəmsal savadlılığın artırılması üçün sektorlar arası əməkdaşlığın vacibliyi gündəmə gətiriləcək.

COP29 ərəfəsinə təsadüf edən bu konfransda ətraf mühit, sosial və idarəetmə (ESG) prinsipləri haqqında da danışılacaq. Bu sessiyada rəqəmsallaşma prosesinin və iqlim fəaliyyətinin bir-birinə təsiri, dayanıqlı inkişaf və sıfır karbon emissiya məqsədlərinə nail olmaq üçün bütün sektorlar arasında qarşılıqlı əməkdaşlığın əhəmiyyəti vurğulanacaq. Qlobal telekommunikasiya liderlərinin bu hədəfə çatmaq üçün gördüyü işlər, rəqəmsal innovasiyaların ətraf mühitin dayanıqlığına verdiyi töhfə barədə danışılacaq.

Tədbirdə telekommunikasiya şirkətlərinin innovativ B2B həlləri vasitəsilə bizneslərin rəqəmsallaşma prosesinə müsbət təsiri, onlar üçün yaratdığı yeni gəlir istiqamətləri gündəmə gətiriləcək. Dəvət olunan məruzəçilər arasında “AWS”, “e&”, “Google”, “Microsoft” və s. kimi böyük şirkətlərin nümayəndələri var.

Qeyd edək ki, ötən il Bakıda baş tutan M360 tədbirində dünyanın 29 ölkəsindən nümayəndələr iştirak edib. Bu il də konfransda geniş təcrübəyə malik sənaye liderlərinin bir araya gəlməsi gözlənilir.

“JW Marriott Absheron Baku” mehmanxanasında baş tutacaq tədbirdə iştirak etmək istəyən hər kəs “GSMA M360 Eurasia” səhifəsində qeydiyyatdan keçə bilər.

# Ölkənin ən böyük özəl telekommunikasiya şirkəti yeni brend kimliyini təqdim edir

Ölkənin ən böyük özəl telekommunikasiya şirkəti olan “Bakcell” yeni brend kimliyini elan etdi. Bakcell-in Baş İcraçı Direktoru Klaus Müller 25 aprel 2024-cü il tarixində Bakı Konqres Mərkəzində keçirilən mətbuat konfransında bu xəbərləri jurnalistlərlə bölüşdü.




“Yeni “Bakcell”in məqsədi Azərbaycanın dəyərli xalqına innovativ xidmətlər təqdim etməkdir. Yeni brend kimliyimiz zahiri görünüş, məzmun və mövqelendirmə müstəvisində cəsarətli dəyişiklikləri əks etdirir. Bununla biz, “Bakcell” daxilində fəaliyyətimizin məqsədini yeni istiqamətə yönləndirəcəyik. Diqqət mərkəzimizdə sırf yeniliklər dayanacaq. Azərbaycana vacib olan və əhəmiyyət kəsb edəcək innovasiyaların gətirilməsi bundan sonra da bizim yolumuzu şimal ulduzu kimi istiqamətləndirəcək”, - Klaus Müller vurğulayıb.

Belə ki, şirkətin yeni vizual həlli 5 dinamik fiqurun ulduz şəklində düzüldüyü və gələcəyə yol açan bir loqonu ərsəyə gətirir. Beləliklə, “Bakcell”in şimal ulduzu bəzən insanları, bəzən məkanları, əksər hallarda isə, dəyərli anları birləşdirərək bir-birinə bağlayır. Bu innovativ dizayn “Bakcell”in rəqəmsal gələcəyə sürətli sıçrayışının təcəssümüdür.

Mətbuat konfransında süni intellektlə dəstəklənən insanabənzər robot təqdim edən “Bakcell” şirkəti, bununla Bakcell-in müştəriləri ilə qarşılıqlı əlaqəsi və işçi qüvvəsinin potensialını artırmaq üçün yeni innovativ brend kimliyində süni intellektin istifadəsini təsdiqləyib. “Bakcell”in hədəfi qarşıdan gələn innovasiyalar silsiləsi vasitəsilə bütün Azərbaycan ərazisində, xüsusən də Azərbaycan üçün olduqca önəmli və dəyərli anlarla zəngin olan Qarabağda ən sürətli mobil şəbəkəni təmin edərək dəyər təkliflərini artırmaqdır.

Ötən il “Bakcell” şirkəti yeni brend kimliyinin konsepsiyasının hazırlanmasını “Meta” və “Alphabet” kimi beynəlxalq miqyasda tanınmış brendlərlə işləyən İspaniyanın qlobal konsaltinq şirkəti “Saffron”a həvalə edib. “Bakcell” inqilabi yeni innovativ yanaşmanı bütün dəyər zənciri boyunca təqdim etdi. “Bakcell” əsas təchizatçısı “Azerconnect” ilə əməkdaşlıq edir və onlar birlikdə “Cisco”, “Huawei”, “Nokia”, “Ericsson” və digərləri kimi qabaqcıl beynəlxalq təchizatçı və tərəfdaşlarla çalışırlar. Buraya həmçinin “Neqsol” ailəsi çərçivəsində “Vodafone” Ukrayna və onun tərəfdaşı “Vodafone” qlobal da daxildir.

Artıq bir sıra yeniliklərə start verilib. Növbəti günlərdə ChatBot və VoiceBot (Apple-ın Siri-yə bənzər məhsulu) kimi süni intellekt əsaslı danışıq assistentlərimiz müştərilərə təqdim ediləcək. Danışıq assistentlərimiz dərin öyrənmə sahəsində LLM və GPT kimi ən son nailiyyətlərlə təchiz edilmişdir.

“Bakcell” telefonların satışına başlayır və cihaz ilə birlikdə, yalnız “Bakcell” kimi bir telekommunikasiya şirkətinin təklif edə biləcəyi və olduqca əlverişli xidmət təkliflərini müştərilərə təqdim edir. Tezliklə “Bakcell” innovativ və hazırda Azərbaycanda mövcud olan istənilən sürətdən daha sürətli ev internet xidmətləri təqdim edəcək.

Hər zaman Azərbaycan xalqının yanında olan “Bakcell”, yenicə elan etdiyi brend kimliyini bugündən başlayaraq bütün ölkə miqyasında, müştəriləri və abunəçiləri ilə qeyd etməyə hazırlaşır. Belə ki, ilk rebrendinq təqdimat tədbiri bu gün, 25 aprel tarixində Bakı Bulvarında baş tutacaq. Tədbirin detalları ilə bağlı məlumat “Bakcell” şirkətinin sosial media kanallarında paylaşılıb. Növbəti tədbirlər regionlarda davam edəcək.

Şirkət haqqında: “Bakcell” 3 milyondan çox abunəçini ölkənin ən sürətli mobil şəbəkəsi ilə təmin edir. Az əvvəl “Bakcell” korporativ müştərilərinə sabit kommunikasiya xidmətləri təklif etməyə başlayıb. Şirkət NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# Bakcell tədbiri ilə 10 000-lərlə insanı bir araya topladı




Ölkənin ən böyük özəl telekommunikasiya şirkəti Bakcell, 25 aprel tarixində baş tutan mətbuat konfransında yeni brend kimliyini elan edib. “Bakcell”in dəyişən dünyanın tələblərinə uyğun rebrendinq tədbiri dünən axşam Bulvardakı innovasiyalarla dolu konsertlə davam edib.

Azərbaycanın telekommunikasiya sahəsi üçün innovasiya və həyəcan dolu bir gündə Bakcell, Röya, Miri Yusif, Tünzalə Ağayeva, Murad Arif, Hüsniyyə Məhərrəmova kimi tanınmış simaların iştirakı ilə tamaşaçılara möhtəşəm şou sərgiləyib. Tədbirin ən maraqlı məqamlarından biri də Bakcell-in mətbuat konfransında açıqladığı süni intellekt dəstəkli humanoid robot Ardinin Murad Ariflə duet oxuması olub.

10 000-lərlə tamaşaçının olduğu tədbirdə gecə boyunca müsabiqələr təşkil edən Bakcell, iPhone 15 Pro Max və digər dəyərli hədiyyələri qaliblərə yerindəcə təqdim edib. Gecənin sonunda isə Bakcell-in vəd etdiyi 100 000 GB hədiyyə bütün Bulvara paylanılıb.

Qeyd edək ki, şirkətin Baş İcraçı Direktoru Klaus Müller mətbuat konfransında çıxışı zamanı ən yaxın müddətdə bir sıra innovativ məhsul və xidmətlərin elan ediləcəyi ilə bağlı məlumat paylaşıb. Tədbirdən də göründüyü kimi Bakcell yeni dövrə keçid etməklə, abunəçilərinə innovasiyalarla dolu təcrübə yaşadacaq.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5608**
**Sifariş: 925**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova